QOY ƏDALƏT ZƏFƏR ÇALSIN!



"SƏS" qəzeti mənim üçün ən əziz qəzetdir

# səs

Qəzet 1991-ci il yanvarın 11-dən çıxır

№ 095 (5083) **27 may** 2016-cı il. "Əlincə" Azərbaycan Xeyriyyə Cəmiyyətinin orqanı. **Qiyməti 40 qəpik**

# 2015-ci ildə "Dünyada ilin adamı"...

## *Prezident İlham Əliyev qlobal təhlükəsizliyə və regional inkişafa verdiyi töhfələrinə görə bu mükafata layiq görülüb*



Səh 3

5
Professor Nərgiz Paşayeva: Britaniya Fondunun yaradılması artıq tarixi mədəni zərurətdir



6
BDU-da Respublika Gününə həsr olunmuş tədbir keçirilib



7
Ulu öndər Heydər Əliyev ölkəmizi Azərbaycan Xalq Cümhuriyyətinin taleyini yaşamaq təhlükəsindən xilas etdi



# Azərbaycan ilə Türkiyə müttəfiq, dost və qardaş ölkələrdir

*Azərbaycan Prezidenti İlham Əliyev Türkiyə Konstitusiya Məhkəməsi sədrinin başçılıq etdiyi nümayəndə heyətini qəbul edib*

***Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 26-da Türkiyə Respublikası Konstitusiya Məhkəməsinin sədri Zühtü Arslanın başçılıq etdiyi nümayəndə heyətini qəbul edib. İkitərəfli münasibətlərimizin bütün sahələrdə yüksək səviyyədə olduğunu qeyd edən dövlətimizin başçısı Azərbaycan ilə Türkiyənin müttəfiq, dost və qardaş ölkələr olduğunu dedi.***

Azərbaycan ilə Türkiyə arasında əməkdaşlığın bütün istiqamətlərdə, o cümlədən məhkəmə-hüquq sahəsində də inkişaf etdiyini vurğulayan dövlətimizin başçısı Türkiyə Respublikası Konstitusiya Məhkəməsinin sədri Zühtü Arslanın başçılıq etdiyi nümayəndə heyətinin ölkəmizə səfəri çərçivəsində mühüm məsələlərin müzakirə ediləcəyini və bu sahədə əməkdaşlığımızın iki ölkə arasında əlaqələrin daha da inkişaf etdirilməsi işinə böyük töhfə verəcəyini dedi. Bu yaxınlarda Türkiyəyə səfərini məmnunluqla xatırlayan Prezident İlham Əliyev Dünya Humanitar Sammitinin ilk dəfə İstanbulda uğurla keçirilməsi münasibətilə təbriklərini çatdırdı. Prezident İlham Əliyev ölkələrimiz arasında əməkdaşlığın bütün istiqamətlərdə, o cümlədən siyasi, iqtisadi, enerji, nəqliyyat və digər sahələrdə olduğu kimi, məhkəmə-hüquq sistemi sahəsində də daha da inkişaf etdirilməsinin önəmini qeyd etdi. Azərbaycana son dəfə 2010-cu ildə səfər etdiyini və ötən dövr ərzində Bakının tamamilə dəyişdiyini, yeni bir şəhərə çevrildiyini vurğulayan Türkiyə Respublikası Konstitusiya Məhkəməsinin sədri Zühtü Arslan əldə olunan nailiyyətlər münasibətilə dövlətimizin başçısını təbrik etdi. Zühtü Arslan Türkiyə ilə Azərbaycan arasında bütün sahələrdə yüksək əlaqələrin mövcud olduğunu vurğulayaraq bu əlaqələrin məhkəmə və hüquq sistemi sahəsində də davam etdirilməsinin zəruriliyini qeyd etdi. Görüşdə əməkdaşlığın perspektivləri ilə bağlı məsələlər ətrafında fikir mübadiləsi aparıldı.



# Azərbaycan ilə Avropa İttifaqı arasında səmərəli əməkdaşlıq həyata keçirilir

*Azərbaycan Prezidenti İlham Əliyev İtaliya Senatının Avropa İttifaqının siyasəti daimi komissiyası sədrinin başçılıq etdiyi nümayəndə heyətini qəbul edib*

***Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 26-da İtaliya Respublikası Senatının Avropa İttifaqının siyasəti daimi komissiyasının sədri, senator Vanino Kitinin başçılıq etdiyi nümayəndə heyətini qəbul edib.***

İtaliya-Azərbaycan əlaqələrinin çoxşaxəli olduğunu və ölkələrimizin bir sıra sahələrdə uğurlu əməkdaşlıq etdiyini vurğulayan dövlətimizin başçısı bu əlaqələrin daha da inkişaf etdirilməsində parlamentlərarası əməkdaşlığın mühüm yer tutduğunu qeyd etdi. Azərbaycan ilə Avropa İttifaqı arasında da səmərəli əməkdaşlığın həyata keçirildiyini qeyd edən dövlətimizin başçısı Avropa İttifaqı Şurasının prezidenti Donald Tuskun və Avropa İttifaqının xarici əlaqələr və təhlükəsizlik siyasəti üzrə ali nümayəndəsi Federika Moqerininin Azərbaycana uğurlu səfərlərini və Federika Moqerini ilə Vyanada keçirdiyi görüşü məmnunluqla xatırladı. Azərbaycanın Avropa İttifaqına üzv olan 8 ölkə ilə artıq strateji tərəfdaşlıq haqqında sənədlərin imzalandığını və qəbul edildiyini bildirən Prezident İlham Əliyev bu ölkələrdən birinin də İtaliya olduğunu vurğuladı. Bunu əməkdaşlığımızın yaxşı göstəricisi kimi dəyərləndirən dövlətimizin başçısı Avropa İttifaqının, İttifaqa üzv olan ölkələrin və Azərbaycanın bu əməkdaşlığa böyük əhəmiyyət verdiyini dedi. İtaliya Respublikası Senatının Avropa İttifaqının siyasəti daimi komissiyasının sədri, senator Vanino Kitinin ölkəmizə səfərin uğurlu keçəcəyinə əminliyini ifadə edən dövlətimizin başçısı səfərin ikitərəfli və Avropa İttifaqı-Azərbaycan əlaqələrinin müzakirə edilməsi baxımından önəmli olacağını dedi. Senator Vanino Kiti Azərbaycanın həm Avropa İttifaqı, həm də İtaliya üçün mühüm ölkələrdən biri olduğunu vurğuladı. Vanino Kiti dedi: “Azərbaycanın əhəmiyyəti yalnız təbii sərvətləri ilə bağlı deyil. Azərbaycan müsəlman ölkəsidir və dünyəvi dövlətdir, bunun çox böyük əhəmiyyəti var”. O, eyni zamanda, bildirdi ki, Azərbaycan terrorizmə, ekstremizmə və radikalizmə qarşı qətiyyətlə mübarizə aparan bir dövlətdir. Vanino Kiti ikitərəfli əlaqələrimizin yaxşı nümunəsi kimi İtaliya ilə Azərbaycan arasında mövcud olan dostluq əlaqələrini xüsusi qeyd etdi.



## Rəsmi xronika

Azərbaycan Prezidenti İlham Əliyev Zakir Zaur oğlu İbrahimovun “AzerGold” Qapalı Səhmdar Cəmiyyətinin İdarə Heyətinin sədri təyin edilməsi haqqında Sərəncam imzalayıb.

* * *

Azərbaycan Prezidenti İlham Əliyev Azərbaycan Milli Elmlər Akademiyasının İnsan Hüquqları üzrə Elmi Tədqiqat İnstitutunun Hüquq və İnsan Haqları İnstitutu adlandırılması haqqında Sərəncam imzalayıb. Sərəncamda qeyd olunur ki, AMEA-nın İnsan Hüquqları üzrə Elmi Tədqiqat İnstitutu Hüquq və İnsan Haqları İnstitutu adlandırılsın. Nazirlər Kabinetinə bu Sərəncamdan irəli gələn məsələləri həll etmək tapşırılıb.

* * *

Azərbaycan Prezidenti İlham Əliyev Mərdan Camalovun “Şöhrət” ordeni ilə təltif edilməsi haqqında Sərəncam imzalayıb. Sərəncamda deyilir ki, Azərbaycan Respublikasının ictimai-siyasi həyatında xidmətlərinə görə Mərdan Talıb oğlu Camalov “Şöhrət” ordeni ilə təltif edilsin. Dövlət başçısının digər Sərəncamı ilə Azərbaycan Respublikasının ictimai-siyasi həyatında fəal iştirakına görə millət vəkili Rauf Asif oğlu Əliyev də “Şöhrət” ordeni ilə təltif edilib.

# 2015-ci ildə “Dünyada ilin adamı”...

*Prezident İlham Əliyev qlobal təhlükəsizliyə və regional inkişafa verdiyi töhfələrinə görə bu mükafata layiq görülüb*

Məlum olduğu kimi, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Azərbaycanın Avropanın enerji təhlükəsizliyinə verdiyi əhəmiyyətli töhfəyə, “Cənub Qaz Dəhlizi”, “Şahdəniz-2”, TANAP və TAP layihələrinin yaradılması və həyata keçirilməsi, mühüm beynəlxalq idman tədbirlərinin, o cümlədən birinci Avropa Oyunlarının nümunəvi təşkilinə və Azərbaycanın çox böyük potensialının dünyada təbliğinə, “Şərq-Qərb”, “Şimal-Cənub” nəqliyyat dəhlizlərinin yaradılması ilə bağlı göstərdiyi səylərə, Azərbaycanı əhəmiyyətli transmilli nəqliyyat layihələrinin mərkəzinə çevirdiyinə, sivilizasiyalar və mədəniyyətlər arasında dialoqun inkişaf etdirilməsinə verdiyi böyük dəstəyə, multikultural dəyərlərin təşviqi ilə bağlı beynəlxalq humanitar tədbirlərin keçirilməsi və regionda sülh və təhlükəsizliyin təmin olunması ilə bağlı digər uğurlu fəaliyyətinə görə “The Business Year” jurnalı tərəfindən 2015-ci ildə “Dünyada ilin adamı” mükafatına layiq görülüb. Əlbəttə ki, Prezident İlham Əliyevin bu mükafata layiq görülməsi Onun qlobal təhlükəsizliyə və regional inkişafa verdiyi töhfələrinə görədir...

### Azərbaycan iqtisadi və siyasi sahələrdə heyranedici uğurlara nail olub

Ötən 12 il ərzində Azərbaycan həm siyasi, həm də iqtisadi sahələrdə heyranedici uğurlara nail olub. Bunu yalnız hesabatlardakı faktlar və quru rəqəmlər deyil, həm də yerli və xarici ekspertlər də təsdiqləyirlər. Qeyd etməyə dəyər ki, Ümumdünya İqtisadi Forumunun məlumatlarına görə, ölkə iqtisadiyyatı dünyada 39-cu yerdədir.

Faktdır ki, son illər ərzində Azərbaycanda 1 milyon 200 min yeni iş yeri açılıb. İşsizlik kimi ciddi problemin böyük hissəsi demək olar ki, həllini tapıb. İşsizliyin səviyyəsi təxminən 5 faiz civarındadır. Yoxsulluq təxminən 10 dəfə - 49 faizdən 5,5 faizədək azalıb, orta maaş 5,6 dəfə, orta pensiya 9,2 dəfə artıb. Sosial infrastrukturun yaradılması üçün böyük vəsait səfərbər edilib. Azərbaycanda 2700 məktəb, 500-ə yaxın xəstəxana, 35 Olimpiya mərkəzi tikilib, tarixi abidələrimiz bərpa edilib.

Məhz bu gün yaradılmış baza sonrakı illərdə Azərbaycanda yoxsulluğun azaldılması, yoxsulluq şəraitində yaşayanların həyat səviyyəsinin yaxşılaşdırılması, sosial infrastrukturun yaradılması üzrə proqramların həyata keçirilməsinə əsas yaradır.

### Azərbaycan regional və beynəlxalq miqyasda enerji təhlükəsizliyinin təmin olunmasında mühüm rola malikdir

Azərbaycan regionun zəngin neft-qaz ehtiyatlarına malik olan ölkəsi kimi həm regional, həm beynəlxalq miqyasda enerji təhlükəsizliyinin təmin olunmasında mühüm rola malikdir. BTC və BTƏ kimi neft-qaz kəmərlərilə Avropanın enerji təhlükəsizliyinə mühüm töhfə verən Azərbaycan bu gün bütün dünyanın diqqət mərkəzində olan TANAP və TAP kimi layihələrin reallaşmasında aparıcı rol oynayır.

Qeyd edək ki, hazırda Avropada enerji daşıyıcılarına tələbat gündən-günə artır. Avropa ölkələri bu tələbatı ödəmək üçün Azərbaycan ilə bu sahədə əməkdaşlığa can atır. Məhz buna görə də uzun illər Azərbaycan qazının Avropaya nəqli istiqamətində davam edən müzakirələr ən etibarlı yol olan Trans-Anadolu qaz kəməri (TANAP) marşrutunun seçilməsi ilə nəticələnib.

TANAP layihəsinin davamı olaraq, Azərbaycandan ixrac olunan qazın Avropaya nəqli istiqamətində bir sıra yollar (“NABUCCO”, ITGI (Türkiyə-Yunanıstan-İtaliya qaz kəməri) və SEEP (Cənubi-Şərqi Avropa boru kəməri) təklif olunsa da, nəticədə, 2013-



cü ildə “Şahdəniz” Konsorsiumu Azərbaycan qazını Avropaya nəql edəcək layihə kimi Trans-Adriatik Qaz Kəməri layihəsini (Trans-Adriatik Pipeline (TAP)) seçib. Bu layihə Cənubi Qafqaz Qaz Kəmərinin (Bakı-Tbilisi-Ərzurum) və Trans-Anadolu Qaz Kəmərinin (TANAP) davamı olub, “Şahdəniz-2” yatağındakı qazın Yunanıstan və Albaniya vasitəsilə, Adriatik dənizi ilə İtaliyanın cənubuna, oradan da Qərbi Avropaya nəqlini nəzərdə tutur. Məlumata görə, Azərbaycan qazının bu kəmər vasitəsilə 2019-cu ildə Avropaya çatdırılması planlaşdırılır.

Layihənin icrası Qafqazda strateji baxımdan ən əlverişli mövqedə yerləşən və buna görə böyük dövlətlərin diqqət mərkəzində olan Azərbaycanın milli təhlükəsizliyinin, eləcə də onun bir hissəsi olan enerji təhlükəsizliyinin təmin olunmasında Avropa dövlətlərinin tərəfdaşlığını stimullaşdıracaq. Nəhayət, Azərbaycan qazı ilə təmin olunan ölkələrlə qurulmuş möhkəm ikitərəfli əməkdaşlıq nəticəsində Dağlıq Qarabağ münaqişəsinin həllində Azərbaycana Avropa İttifaqı dövlətlərinin dəstəyini artacaqdır.

Beləliklə, Azərbaycan enerji diplomatiyası vasitəsilə, bütövlükdə dünyanın böyük dövlətləri ilə mehriban dostluq münasibətlərini nümayiş etdirir və bu münasibətlər dövlətlərarası əlaqələrin inkişafına möhkəm zəmin yaradır. Azərbaycanın müasir enerji siyasətində başlıca mövqeyə malik olan TANAP, TAP və “Şahdəniz-2” enerji layihələrinin əsasının qoyulması bu gün qardaş Azərbaycan və Türkiyəni daha da yaxınlaşdırmaqla yanaşı, həmçinin Azərbaycanın Avropa dövlətləri arasında nüfuzunun yüksəlməsinə və Avropa İttifaqına inteqrasiya prosesinin sürətlənməsinə mühüm töhfədir.

### Multikulturalizm Azərbaycanın dövlət siyasəti və cəmiyyətin həyat tərzidir

Təkzibolunmaz faktdır ki, multikulturalizm Azərbaycan xalqının həyat tərzidir. Əsrlərdir ki, xalqımız tolerantlıq, dözümlülük, başqa dinlərə və mədəniyyətlərə hörmət prinsiplərini həyat tərzinə çevirərək, bu prosesə mühüm töhfələr verib. Ona görə də Prezident İlham Əliyevin 2016-cı ili Azərbaycanda “Multikulturalizm ili” elan etməsi heç də təsadüfi deyil və bunun dərin tarixi kökləri var. Belə ki, Azərbaycan əsrlər boyu mədəniyyətlərin qovuşduğu məkanda yerləşməklə dinlər və sivilizasiyalararası anlaşmada aparıcı rol oynayıb, bununla bağlı dərin tarixi baza formalaşdırıb. Ölkəmizdə heç vaxt dini və etnik zəmində heç bir qarşıdurma olmayıb və bu proses indi də uğurla davam etdirilir. İkincisi, Azərbaycan cəmiyyətindəki dözümlülük ölkədə nadir tolerantlıq mühiti yaradıb və indi bu, bir nümunə kimi beynəlxalq ictimaiyyətin diqqətini cəlb edir. Üçüncüsü isə, Azərbaycanda multikulturalizm ənənələrinin inkişafı və möhkəmlənməsi üçün bütün zəruri siyasi və sosial şəraitin mövcud olmasıdır.

Multikulturalizmi beynəlxalq platformaya çevirmək istəyən Azərbaycan dünyada bu prosesə qarşı olan təhlükəni hiss edir və onun xilası naminə mühüm təşəbbüslər irəli sürür. Prezident İlham Əliyevin Sərəncamı ilə Bakı Beynəlxalq Multikulturalizm Mərkəzinin yaradılması isə ölkəmizin tolerantlıq prinsiplərinə dönmədən sadiq qalmasının bariz nümunəsinə çevrildi.

### Azərbaycan beynəlxalq nəqliyyat mərkəzinə çevrilir

Azərbaycan Şərq-Qərb və Şimal-Cənub nəqliyyat dəhlizlərinin kəsişməsində yerləşir və bu baxımdan, əlverişli geostrateji mövqeyə malikdir. Hələ 1998-ci ildə bu potensialı böyük uzaqgörənliklə qiymətləndirən Ümummilli Lider Heydər Əliyevin siyasi məharəti və səyləri nəticəsində 32 ölkənin və 13 beynəlxalq təşkilatın səlahiyyətli nümayəndəsinin iştirakı ilə tarixi İpək Yolunun bərpasına həsr olunmuş konfrans, məhz Bakıda təşkil olunub və həmin tədbirdə Avropa-Qafqaz-Asiya nəqliyyat dəhlizinin (TRASEKA) həyata keçirilməsinin texniki və iqtisadi məsələlərini özündə əks etdirən “Avropa-Qafqaz-Asiya dəhlizinin inkişafı üzrə beynəlxalq nəqliyyat haqqında Əsas Çoxtərəfli Saziş” imzalanıb.

Avropa-Qafqaz-Asiya nəqliyyat dəhlizinin inkişaf etdirilməsi istiqamətində tədbirlərin uğurla nəticələnməsi alternativ layihələrin də inkişafına səbəb olub. Məsələn, Şimal-Cənub nəqliyyat dəhlizi ideyası buna nümunə ola bilər. Bu layihə Hindistan, Pakistan, Oman, İran və Rusiya tərəfindən irəli sürülüb. Dəhlizin fəaliyyəti Hindistandan gələn yüklərin gəmi vasitəsilə Süveyş kanalından keçib, Ümid burnunu dolanaraq, İranın Bəndər Abbas limanına çatdırılmasını, buradan da onların dəmir yolu vasitəsilə Azərbaycan ərazisindən keçməklə, Rusiya və digər ölkələrə ötürülməsini nəzərdə tutur. Azərbaycan bu layihədə də fəal iştirak edərək, onu milli maraqların təmin edilməsi və ölkədə digər nəqliyyat növlərinin inkişafı baxımından əlverişli hesab edir. Şimal-Cənub beynəlxalq nəqliyyat dəhlizi haqqında razılaşma 2000-ci ildə Rusiyada əldə olunub. Prezident İlham Əliyev “Şimal-Cənub beynəlxalq nəqliyyat dəhlizinin Azərbaycan Respublikasının ərazisindən keçən hissəsində işlərin sürətləndirilməsi haqqında” Sərəncam da imzalayıb. Sərəncamın icrası Azərbaycan dəmir yollarının İran dəmir yolları şəbəkəsi ilə əlaqələndirilməsini və bu sahədə görülən işləri sürətləndirəcək, Azərbaycanın tranzit ölkə kimi əhəmiyyətini daha da artıracaq.

“Azərbaycan 2020: gələcəyə baxış” İnkişaf Konsepsiyasında deyilir ki, Azərbaycanı regionun ticarət mərkəzinə çevirmək məqsədilə ölkənin strateji coğrafi mövqeyindən səmərəli istifadə etməklə, tranzit və nəqliyyat xidmətlərinin inkişafı, ölkənin bölgələrində logistika mərkəzlərinin yaradılması nəzərdə tutulur.

Avrasiya məkanının mühüm logistik mərkəzlərdən birinə çevrilən Azərbaycan həm də öz tranzit imkanlarını artırmağa yol açan yeni təşəbbüslərin müəllifidir. Bu təşəbbüslərdən biri Bakı-Tbilisi-Qars dəmir yolu layihəsidir. İqtisadi baxımdan səmərəli, dayanıqlı, təhlükəsiz və ekoloji normalara tam cavab verəcək BTQ dəmir yolu xətti Şərq-Qərb nəqliyyat dəhlizinin əsas elementlərindən olmaqla Cənubi Qafqaz, eləcə də bütövlükdə, Avrasiya ticari-iqtisadi münasibətlər sahəsində sıx əməkdaşlığa, regionda sosial-iqtisadi artımın sürətlənməsinə, eləcə də ölkələrin qlobal səviyyədə əməkdaşlığının genişlənməsinə böyük töhfə verəcək.

Ölkəmizin tranzit imkanlarını artıran digər mühüm layihələrdən biri də Yeni Bakı Beynəlxalq Dəniz-Ticarət Limanı Kompleksidir. Ələt qəsəbəsində tikilməkdə olan liman regionun avtomobil, dəmir və dəniz yollarının kəsişmə nöqtəsinə çevriləcək. Limanın inşasının birinci fazası 2017-ci ildə başa çatacaq və Çindən tutmuş Mərkəzi Asiya və Avropayadək daşımalara töhfəsini verəcək. Birinci mərhələdə limanın yükaşırma qabiliyyəti ildə 10 milyon ton yük və 50 min konteynerdən ibarət olacaq. İkinci mərhələdə limanın yükaşırma gücü 17 milyon ton yük və 150 min konteynerə, üçüncü mərhələnin yekununda isə 25 milyon ton yük və 1 milyon konteynerə çatdırılacaq. Limanda layihə üzrə logistika mərkəzinin yaradılması da mühüm əhəmiyyət kəsb edir.

Göründüyü kimi, Azərbaycan son illər ərzində sosial-iqtisadi və siyasi sahələrdə mühüm uğurlar qazanıb. Ölkəmiz, eyni zamanda regional və qlobal miqyaslı layihələrin reallaşdırılmasında aparıcı rol oynayır. Enerji, nəqliyyat, təhlükəsizlik və əməkdaşlıq məsələlərində xüsusi əhəmiyyəti olan Azərbaycan regional inkişaf prosesinə dəyərli töhfələrini verir. Əlbəttə ki, bütün bunlar da əsası Ulu Öndər Heydər Əliyev tərəfindən qoyulmuş siyasi kursun Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilməsinin nəticəsidir. Bu baxımdan, qlobal əhəmiyyətli fəaliyyətilə dünyanın diqqət mərkəzində olan Prezident İlham Əliyev 2015-ci ildə “Dünyada ilin adamı” mükafatına layiq görülüb.

***“SƏS” Analitik Qrupu***

# Azərbaycan nümayəndə heyəti təhlükəsizlik məsələlərinə kuratorluq edən yüksək nümayəndələrin beynəlxalq görüşündə iştirak edib

***Mayın 23-25-də Rusiya Federasiyasının Çeçenistan Respublikasının paytaxtı Qroznı şəhərində təhlükəsizlik məsələlərinə kuratorluq edən yüksək nümayəndələrin VII beynəlxalq görüşü keçirilib. Tədbirdə dünyanın 75 ölkəsinin nümayəndələri iştirak ediblər.***



AZƏRTAC xəbər verir ki, görüşün açılışında Çeçenistan Respublikasının rəhbəri Ramzan Kadırov və Şimali Qafqaz Federal Dairəsində Rusiya Federasiyası Prezidentinin səlahiyyətli nümayəndəsi Sergey Melikov çıxış ediblər. Rusiya Federasiyası Təhlükəsizlik Şurasının katibi Nikolay Patruşev və BMT Təhlükəsizlik Şurasının Antiterror İcraiyyə Komitəsinin icraçı direktorunun müavini Veytszonq Çen Rusiya Prezidenti Vladimir Putinin və Birləşmiş Millətlər Təşkilatının baş katibi Pan Gİ Munun təbrik məktublarını oxuyublar.

Görüşdə dünyanın müxtəlif regionlarında ekstremizmə və terrorizmə qarşı mübarizə, miqrasiya prosesləri, habelə beynəlxalq informasiya təhlükəsizliyi sisteminin formalaşması ilə əlaqədar məsələlər regional və beynəlxalq təhlükəsizliyin təmin edilməsi kontekstində müzakirə olunub. Görüşdə Azərbaycan nümayəndə heyətinə başçılıq edən Prezident Administrasiyasının rəhbəri akademik Ramiz Mehdiyev məruzələrlə çıxış edib. Prezident Administrasiyasının rəhbəri məruzələrində Azərbaycanın terrorizmə və ekstremizmə qarşı mübarizə sahəsində müsbət təcrübəsini, habelə miqrasiya proseslərinin tənzimlənməsi istiqamətində əldə etdiyi uğurları diqqətə çatdırıb. Vurğulanıb ki, bu məsələlər Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin bilavasitə diqqət mərkəzində və nəzarətindədir.

Azərbaycan Respublikası Prezidenti Administrasiyasının rəhbəri səfər çərçivəsində Çeçenistan Respublikasının rəhbəri Ramzan Kadırov, Rusiya Federasiyası Təhlükəsizlik Şurasının katibi Nikolay Patruşev, habelə Belarus, Macarıstan və Rumıniya nümayəndə heyətlərinin rəhbərləri ilə ikitərəfli görüşlər keçirib. Çeçenistan Respublikasının rəhbəri Ramzan Kadırovla görüşdə Azərbaycan ilə Çeçenistan arasında dostluq münasibətləri xüsusi qeyd edilib, bu münasibətlərin daha da inkişaf etdirilməsi məsələləri müzakirə olunub. Rusiya Federasiyası Təhlükəsizlik Şurasının katibi Nikolay Patruşevlə görüşdə təhlükəsizlik şuraları xətti ilə ikitərəfli əməkdaşlığın genişləndirilməsi mövzusu müzakirə edilib.

# MSK cari il üçün ən mühüm tədbiri olan daimi seçicilər siyahısının tərtib edilməsi və dəqiqləşdirilməsi prosesinə yekun vurub





***Vətəndaşların konstitusion hüquqlarından olan seçmək və seçilmək hüquqlarının təmin olunması, seçkilərin azad, ədalətli və şəffaf keçirilməsi üçün seçici siyahıları əsas əhəmiyyət kəsb edən sənədlərdən biridir. Mərkəzi Seçki Komissiyasının bilavasitə rəhbərliyi ilə 2016-cı ilin əvvəllərindən may ayının sonunadək həyata keçirilən dəqiqləşdirmə prosesi nəticəsində siyahıların yüksək keyfiyyətdə və dəqiqliklə hazırlanmasına nail olunub.***



Otuz mindən artıq aşağı seçki komissiyası üzvünün cəlb olunduğu bu əhatəli və irimiqyaslı proses Daxili İşlər Nazirliyi və Ədliyyə Nazirliyinin aidiyyəti orqanları, yerli icra hakimiyyətləri və bələdiyyə qurumları ilə sıx və intensiv əməkdaşlıq şəraitində reallaşdırılıb. Siyahıların dəqiqləşdirilməsində Azərbaycan seçicilərinin də maraqlı olması və aktiv iştirakı, həmçinin Mərkəzi Seçki Komissiyasının 115 nömrəli qaynar xətti və internet səhifəsindəki onlayn xidmət aparılan işin səmərəliliyini daha da artırıb. Xüsusilə vurğulamaq lazımdır ki, dəqiqləşdirmənin effektiv həyata keçirilməsi, siyahıların müasir beynəlxalq standartlara uyğun tərtib və çap olunması üçün bütün proses boyunca informasiya-kommunikasiya texnologiyalarının ən son nailiyyətlərindən geniş istifadə olunub və bu məqsədlə zəruri proqram təminatları, həmçinin digər texniki imkanlar təkmilləşdirilib.

Mərkəzi Seçki Komissiyası Katibliyinin media və ictimai əlaqələr şöbəsindən AZƏRTAC-a bildiriblər ki, Seçki Məcəlləsinə müvafiq olaraq, seçici siyahıları hər bir seçki məntəqəsi üzrə məntəqə seçki komissiyaları tərəfindən dəqiqləşdirildikdən sonra dairə seçki komissiyalarına verilib, onlar isə aidiyyəti qurumlardan daxil olmuş məlumatlarla siyahıları yenidən təhlil etdikdən sonra Mərkəzi Seçki Komissiyasına təqdim ediblər. Mərkəzi Seçki Komissiyası bütün bu proseslərə nəzarət edən orqan kimi öz növbəsində, fasiləsiz onlayn rejimdə işləyən dövlət avtomatlaşdırılmış informasiya sistemi vasitəsilə seçicilərin daxil olduğu məlumat bazasını toplayıb, orada olan mümkün təkrar və qeyri-dəqiqlikləri seçicilərin məlumatlarının keyfiyyət və say təhlili üçün xüsusi proqram təminatı ilə bir daha dəqiqləşdirib.

2016-cı il mayın 26-da Mərkəzi Seçki Komissiyasının üzvləri və kütləvi informasiya vasitələrinin nümayəndələrinin də iştirakı ilə Komissiyanın inzibati binasında siyahıların tərtib edilməsi, çap olunması, təkmilləşdirilmiş proqram təminatları və seçici siyahılarının çevik ictimailəşdirilməsi üçün mövcud imkanlar, eləcə də siyahıların saxlanması şəraiti ilə tanışlıq olub və tədbirə qatılanlar üçün xüsusi təqdimatla prosesin bütün mərhələlərinin geniş izahı verilib. Diqqətə çatdırılıb ki, Mərkəzi Seçki Komissiyasını fiber-optik xətlər üzərindən 125 seçki dairəsinin dairə seçki komissiyası ilə əlaqələndirən lokal şəbəkənin yaratdığı çevik, interaktiv və təhlükəsiz informasiya mübadiləsi, habelə müasir texnologiyanın verdiyi imkanlar seçici siyahılarının dəqiqləşdirilməsi prosesinin səmərəliliyini artırıb, seçicilərlə bağlı məlumatların keyfiyyətli təhlilini təmin edib və nəticədə siyahılar seçicilərin səsvermə hüquqlarının təmin edilməsi üçün real məlumatların əks olunduğu dəqiq bazaya çevrilib. Həmçinin bildirilib ki, seçici siyahılarının daha da təkmilləşdirilməsi istiqamətində fəaliyyət fasiləsiz davam etdiriləcək.

2016-cı il mayın 26-da Məzahir Pənahovun sədrliyi ilə Mərkəzi Seçki Komissiyasının iclası keçirilib və ölkə üzrə vahid seçicilər siyahısının tərtib edilməsi və dəqiqləşdirilməsinin yekunlarına dair məsələyə baxılıb.

Mərkəzi Seçki Komissiyasının sədri Məzahir Pənahov ilin əvvəlindən may ayının sonunadək uğurla həyata keçirilmiş vahid seçicilər siyahısının dəqiqləşdirilərək yenidən tərtib edilməsi kimi genişmiqyaslı prosesla bağlı ətraflı məlumat verib və dəqiqləşmə prosesində aşağı seçki komissiyalarına lazımi köməklik göstərmiş bütün qurumlara öz təşəkkürünü bildirib.

İclasda seçici siyahılarının dəqiqləşdirilməsi ilə bağlı fəaliyyətin yekunları geniş müzakirə edilib və prosesin inkişaf dinamikası xüsusi vurğulanıb. Müzakirələrdən sonra Mərkəzi Seçki Komissiyası 2016-cı ilin daimi seçicilər siyahısının tərtib edilməsi və dəqiqləşdirilməsi işini başa çatdırılmasına, siyahıların məntəqə və dairə seçki komissiyaları tərəfindən təsdiq olunması üçün aidiyyəti üzrə dairə seçki komissiyalarına göndərilməsinə, həmçinin respublika üzrə seçicilərin daimi siyahısının dövlət avtomatlaşdırılmış informasiya sistemi vasitəsilə tərtib olunub Komissiyanın rəsmi internet səhifəsində yerləşdirilməklə ictimailəşdirilməsinə dair qərar verib. Qeyd edək ki, 2016-cı il mayın 26-sına olan məlumata görə, ölkə üzrə vahid seçicilər siyahısına 5127111 seçici daxil edilib ki, onların da təqribən 48,35 faizini kişilər, 51,65 faizini isə qadınlar təşkil edir. Komissiyanın iclası digər məsələlərin müzakirəsi ilə öz işini yekunlaşdırıb.

# Professor Nərgiz Paşayeva:

# Britaniya Fondunun yaradılması artıq tarixi mədəni zərurətdir

***Mayın 25-də Londonda, Böyük Britaniyanın Lordlar Palatasında Oksford Universitetinin Nizami Gəncəvi adına Mərkəzinin Azərbaycan və Britaniya tərəfdən rəhbərləri professor Nərgiz Paşayeva və professor Robert Hoyland Lordlar Palatasının üzvü, Avropa Şurasının 2003-2006-cı illərdə Azərbaycan üzrə məruzəçisi Lord Malkolm Brus ilə görüş keçiriblər. Professor N.Paşayeva və professor R.Hoyland tərəfindən təşkil olunmuş bu görüşdə İngiltərə-Azərbaycan Cəmiyyətinin həmsədri Lord Maykl German da iştirak edib. Görüşün əsas məqsədi Azərbaycan və Qafqaz bölgəsini öyrənən Britaniya Fondunun (The British Foundation for the Study of Azerbaijan and the Caucasus) yaradılması ilə bağlı idi.***



Lord Brus britaniyalı siyasətçilər arasında yeganə parlament üzvüdür ki, Azərbaycanın Avropa Şurası qarşısında götürdüyü öhdəliklərin yerinə yetirilməsinə nəzarət edib və rəsmi inzibati-icraçı funksiyanı daşıyıb. O, 1983-2015-ci illərdə Şotlandiyanın Qordon qraflığını Britaniya parlamentində təmsil edib və 2005-2015-ci illərdə Britaniya parlamentinin Beynəlxalq İnkişaf Komitəsinə rəhbərlik edib. 2014-cü ildə təmsil etdiyi Liberal Demokratlar Partiyasının rəhbərinin müavini seçilib, bir müddət bu vəzifədə çalışdıqdan sonra 2015-ci ildən Lordlar Palatasına üzv olub. Lord Brus parlamentin enerji və Şotlandiya məsələləri, təhsil, ticarət, sənaye və ətraf mühit məsələləri üzrə sözçüsü olub, 1986-1989-cu illərdə Şotlandiyanın Dandi Universitetinin (University of Dundee) rektoru vəzifəsində çalışıb. O, öz seçki dairəsindən ardıcıl olaraq beş dəfə seçicilərin ən çox səsini qazanan parlament üzvləri siyahısına daxil edilib və 2012-ci ildə Kraliça II Elizabet tərəfindən cəngavər titulu ilə təltif olunub.

Qonaqları salamlayan və Lord Brusla tanışlığından məmnunluq duyduğunu bildirən Nərgiz Paşayeva görüşün Azərbaycan Demokratik Respublikasının yaranmasının 98-ci ildönümü ərəfəsində keçirildiyini qeyd etdi və iki ildən sonra, yüzillik yubileyini (1918-2018) qeyd edəcək ADR-in azərbaycanlılar üçün xüsusi bir önəm daşıdığını bildirdi. N.Paşayeva 1997-ci ildə təsis edilmiş İngiltərə-Azərbaycan Cəmiyyətinin 2007-ci ildən həmsədri olduğunu nəzərə çatdırdı və Cəmiyyətin müstəqil Azərbaycan tərəfindən İngiltərədə yaradılmış ən uzun tarixli (1997-2016) ictimai təşkilat olduğunu qeyd etdi. Daha sonra 2013-cü ildə yaradılan və Britaniyanın məşhur Oksford Universitetinin bir hissəsi kimi fəaliyyət göstərən, yüksək akademik statusa malik olan Nizami Gəncəvi adına Azərbaycan və Qafqazşünaslıq Elmi Mərkəzinin (http://www.orinst.ox.ac.uk/research/nizami-ganjavi/home) məqsəd və vəzifələrindən söhbət açıldı. N.Paşayeva dedi: "Mühüm olanı odur ki, bu mərkəz nümayəndəçilik, təmsilçilik, zahiri effektə bağlı nümayişkaranə və az funksional, ani keçici kampaniya xarakteri daşımır. Məqsəd Azərbaycanın qədim və böyük mədəni intellektual tarixinin məhz Azərbaycana aid olmasını elmi yolla sübut etmək, yüksək elmi müstəvidə mübahisə aparmaq, eşidilmək hüququnu qazanmaq və əldə edilən dəyərli məlumatları Oksford Universitetinin təqdimatında və daxilindən dünyaya yaymaqdır. Əlbəttə, bu, çox ciddi əmək, peşəkar davamlı səy, məsuliyyət və dəstək tələb edən unikal bir imkandır. Bugünkü nəticələrimiz, başlanğıc, ilk addımlarımız bunları bacara biləcəyimizə ümid yaradır. Bu ümidi real, işimizi faydalı və əhəmiyyətli, nəticələri doğru və pozitiv edən əlbəttə ki, universitetin bizimlə birgə çalışan professor-müəllim heyətidir. Mərkəzin İngiltərə tərəfdən rəhbəri, Oksford Universitetinin İslam tarixi üzrə aparıcı professoru Robert Hoyland, universitetin iranşünaslıq üzrə aparıcı professoru Edmund Herziq, şərqşünaslıq fakültəsinin doktorları Pol Vordsvors, Nikoloz Aleksidze, Oksford Universitetinin Xəlili Tədqiqat Mərkəzinin tədqiqatçısı, doktor Marek Jankoviak, universitetin tarix fakültəsinin doktoru Nik Evans, Oksford Universitetinin Rothermere Amerika İnstitutunun tədqiqatçısı, doktor İrina Şingiray, universitetin şərqşünaslıq fakültəsinin doktorantı Maroussia Bednarkieviç kimi tanınmış alimlərin Nizami Gəncəvi adına Elmi Mərkəzin fəaliyyətindəki səyləri və əməyi əvəzedilməzdir. Nizami Mərkəzinin təqaüdü hesabına hazırda doktorant Ceyms Vayt al-Taalibinin (XI əsr) və Afisin (XIII əsr) işlərinin müqayisəsi ilə bağlı doktorluq işi üzərində çalışır, amerikalı magistr Eliza Mau-Pyu İslam tarixi üzrə elmi araşdırmalar aparır. Ümumilikdə 4 tələbə artıq Nizami Gəncəvi Elmi Mərkəzinin təqaüdü ilə təhsil alır və iki tələbə də gələn il əlavə qəbul ediləcək. Təbii ki, bu tələbələr universitetin ciddi sınaq imtahanlarından uğurla çıxmış olanlardır.

Qeyd edildi ki, Azərbaycanın ikinci müstəqillik dövründən sonra Britaniya ilə mədəni, siyasi-iqtisadi əlaqələrin inkişaf etdirilməsində bir çox işlər görülsə də, Azərbaycan Britaniya cəmiyyətində və vətəndaşları arasında hələ də yetərincə yaxşı tanınmayıb. Buna sübut olaraq, son aylarda Azərbaycanın Ermənistan tərəfindən işğal edilmiş Dağlıq Qarabağ bölgəsində yaranmış gərginliyin İngiltərə mətbuatında məhz "haqqında az məlumat olan" (underreported) və qəliz bölgə kimi qələmə verilməsi, dünya mətbuatında isə münaqişənin daha çox xristian-müsəlman münaqişəsi kimi göstərilməsidir.

Nərgiz Paşayeva dedi: "Bir alim kimi deyə bilərəm ki, bunun əsas səbəblərindən biri Britaniya kimi qədim tarixi ənənəsi olan ölkədə və eləcə də qlobal elmi səviyyədə mühüm rol oynayan mötəbər elm ocağı kimi tanınan Oksford Universitetində 2013-cü ilə qədər (Nizami Gəncəvi Elmi Mərkəzinin yaranma tarixi) Qafqazın qədim tarixi və mədəniyyəti çox hallarda birtərəfli, əsasən erməni tarixi və bir qədər də gürcü tarixi kontekstində öyrənilib. Belə ki, hələ 1965-ci ildə Oksford Universitetinin şərqşünaslıq fakültəsində erməni elmi mərkəzi yaradılıb və bu günə kimi fəaliyyət göstərir. Təəssüflər olsun ki, bunun müqabilində bizim yaratdığımız mərkəz 51 il gec öz fəaliyyətinə başlayır - yəni, bu dövr ərzində heç bir iş görülməyib. Halbuki tarixi həqiqətləri elmi əsaslar və sübutlar üzərində qurub təqdim edən Britaniya cəmiyyətində ilk öncə məhz fundamental elmi ocaqlarla müştərək peşəkar elmi əlaqələr birinci dərəcəli əhəmiyyətə malikdir. Biz bunları yaxşı dərk edir, anlayırıq və səylərimizi universitetlərin, alimlərin, peşəkarların, mütəxəssislərin işinə, əməkdaşlığına, birliyinə və qarşılıqlı etimadına yönəldirik, bu əlaqələrə dəstək olmağa çalışırıq. Çünki müasir zamanda universitet universitetlə, alim alimlə, mütəxəssis mütəxəssislə, peşəkar tədqiqatçı peşəkar tədqiqatçı ilə bərabər işləməlidir. Bu gün dəbdə olan multikulturalizm şüarı termin kimi yeni olsa da, ideya kimi qədim dövrlərdən mövcud idi. Nizaminin tək bir "Yeddi Gözəl"i buna gözəl misaldır. Amma bu şüarı basmaqəlib halına çevirib, formal, dəbdə olan "mahnıya" döndərib, əsl əməyə, uzunmüddətli, 10 illərlə davam edən, gündəlik zəhmətə köklənmiş işlərin və uğurların əvəzi kimi təqdim etmək heç də doğru olmaz. Halbuki belə sırf dekorativ tendensiyalar da bəzən müşahidə olunur. İki ildən sonra Azərbaycan Şərqdə ilk olaraq yaratdığı demokratik respublikanın 100 illiyini qeyd edəcək. Hələ o dövrdə yaranan respublikanın ali hakimiyyətinin tərkibində azərbaycanlılarla yanaşı, ruslar, ermənilər, polyaklar, yəhudilər və digər millətlər də vardı. Bu isə Azərbaycanın dünən də, bu gün də tarixi tolerantlığının göstəricisidir. Maraqlı bir faktdır ki, hələ 1910-cu ildə İngiltərədə ermənilərin yaratdığı Birləşmiş Krallığın Erməni İcma Şurası (Armenian Community Council of United Kingdom) özünün 100 illik fəaliyyətini indi də davam etdirir. Bu, bizim üçün müəyyən göstəricidir. Bu gün bizim vəzifəmiz Azərbaycanı bu ölkənin, İngiltərənin və onun cəmiyyətinin qaydalarına uyğun olaraq layiqi səviyyədə təqdim və təmsil etməkdir".

Daha sonra 25 may tarixli bu görüşün əsas məqsədi müzakirə olundu. N.Paşayeva tərəfindən Azərbaycan və Qafqaz bölgəsini öyrənən Britaniya Fondunun (The British Foundation for the Study of Azerbaijan and the Caucasus) yaradılması təklif edildi. Nəzərə çatdırıldı ki, bu ideya artıq bir neçə aydır İngiltərənin Azərbaycan və Qafqaz regionu üzrə aparıcı alimləri - Oksford Universitetinin İslam tarixi üzrə, habelə Nyu-York Universitetinin Qədim Dünya İnstitutunun aparıcı professoru, hazırda Qafqaz regionunu öyrənən və qədim Bərdənin arxeoloji ekspedisiyasına rəhbərlik edən professor Robert Hoyland, Şotlandiyanın məşhur Sent Enryuz Universitetinin İslam, Orta Asiya (give more description and books) və Qafqaz bölgəsi üzrə professoru Endryu Pikok və Ekseter Universitetinin İslam tarixi və şiəlik təriqətinin yayıldığı əraziləri öyrənən professor Robert Qliv ilə məsləhətləşmələr əsasında yaranıb və çox müsbət qəbul edilib.

Adıçəkilən alimlər yaradılan Britaniya Fondunun Qəyyumlar Şurasının üzvləridir, Şuranın sədri isə professor N.Paşayeva seçilib.

Şuranın sədrinin sözlərinə görə, bu Fond Azərbaycan və Birləşmiş Krallıq arasında mövcud olan ikitərəfli elm, mədəni, maarif, təhsil münasibətlərinə real töhfə verən ciddi bir qurum kimi fəaliyyət göstərməyi qarşısına məqsəd qoyub. Professor N.Paşayeva dedi: "Britaniya Fondunun yaradılması artıq tarixi mədəni zərurətdir. Bu zərurəti həyata keçirmək olduqca vacibdir". Britaniyada fəaliyyət göstərən digər nüfuzlu və şəffaf fondlar kimi, bu qurum da bu yaxınlarda Birləşmiş Krallığın ictimai təşkilatlar üzrə komissiyasında qeydiyyatdan keçiriləcək. Beləliklə, bundan sonra Fond Oksford Universitetinin Nizami Gəncəvi Mərkəzinin və İngiltərə-Azərbaycan Cəmiyyətinin fəaliyyətinə dəstək verməklə yalnız Oksford Universiteti və Londonda deyil, İngiltərənin başqa ali təhsil ocaqları və mötəbər elmi və siyasi qurumları ilə əməkdaşlıq etməyi planlaşdırır. Fond, həmçinin Britaniyada təhsil alan azərbaycanlı tələbələr ilə əməkdaşlıq edib onlara dəstək olmağa çalışacaq. Fondun məqsədlərindən biri də Azərbaycan və Qafqaz üzrə Britaniyanın alim və aparıcı mütəxəssislərini bir araya gətirib Azərbaycanı layiqli səviyyədə təmsil etməklə yanaşı, Britaniyada yaşayan Azərbaycan icmasına dəstək olmaqdır. Bu Fondun yaradılması gündəliyə Böyük Azərbaycan mövzusunu gətirərək, sevimli vətənimizin tarixinin əzəmətli, qədim, şərəfli lakin geniş auditoriyaya açılmamış səhifələrini açmaq missiyasını qarşısına qoyub. Dünyada yaşayan 40 milyona yaxın azərbaycanlının əcdadlarının bəşəriyyətə bəxş etdiyi böyük mədəni töhfələri və əbədi dəyərləri göstərmək, tarixi hörmətlə anmaq, böyük simaların - Nizami, Füzuli, Nəsimi, N.Tusi, Kəmaləddin Behzad, Ş.İ.Xətai, və bir çox başqalarının Azərbaycan övladları olduqlarını tək özümüzə deyil, dünyaya əyan etmək bizim vəzifəmiz və borcumuzdur. Habelə Fond Azərbaycanla bağlı Britaniya mətbuatındakı boşluğu doldurmaq üçün bu ölkənin aparıcı KİV-ləri, xüsusilə aparıcı telekanalları ilə əməkdaşlıq etməyi planlaşdırır.

Görüş zamanı professor N.Paşayeva Britaniyada özünün zəngin siyasi təcrübəsi, nüfuzu və hörməti ilə tanınan Lord Brusu Fondun işinə məsləhət vermək üçün Qəyyumlar Şurasına üzv olmağı dəvət etdi. Lord Brus dəvəti məmnuniyyətlə qəbul etdiyini bildirdi. Yani yaradılan Fondun yaxın gələcəkdə Londonda təqdimat mərasiminin keçirilməsi qərara alındı.

***Orxan İsmayılov***
***AZƏRTAC-ın xüsusi müxbiri***
***London***







# BDU-da Respublika Gününə həsr olunmuş tədbir keçirilib

***Dünən Bakı Dövlət Universitetində 28 May- Respublika Gününə həsr olunmuş tədbir keçirilib. SİA-nın məlumatına görə, tədbirdən əvvəl Jurnalistika fakültəsinin nəzdində fəaliyyət göstərən Tədris-teleradio studiyasının əsaslı təmirdən sonra açılış mərasimi olub.***

Azərbaycan Respublikası Prezidentinin İctimai-siyasi məsələlər üzrə köməkçisi, AR Prezidentinin Administrasiyasının İctimai-siyasi məsələlər şöbəsinin müdiri Əli Həsənov, Türk Əməkdaşlıq və Koordinasiya Agentliyinin (TİKA) Başkan yardımcısı Ali Maskan, KİVDF-nin sədri Vüqar Səfərli, Azərbaycan Mətbuat Şurasının sədri Əflatun Amaşov, millət vəkilləri, KİV rəhbərlərinin iştirakı ilə keçirilən açılış mərasimində çıxış edən Bakı Dövlət Universitetinin rektoru, akademik Abel Məhərrəmov bildirib ki, 1928-ci ildən jurnalist kadrları hazırlayan jurnalistika fakültəsinin tarixində daha bir əlamətdar hadisə qeyd edilir. 1981-ci ildə yaradılan Tədris-teleradio studiyası BDU-nun təşəbbüsü və TİKA-nın dəstəyi nəticəsində əsaslı təmirdən sonra müəllim və tələbələrin ixtiyarına verilir. Rektor qeyd edib ki, studiyanın texniki imkanları genişlənib, əməkdaşları TRT kanalında təlim-təcrübə keçiblər. Professor Əli Həsənov böyük ənələrə, şərəfli tarixə malik Jurnalistika fakültəsinin studiyasının BDU-nun təşəbbüsü ilə yenidən qurulmasını yüksək dəyərləndirib və fakültə tələbələrini yaradılan imkanlardan istifadə etməyə çağırıb.












Sonra tədbir universitetin əsas binasında davam etdirilib. Akademik Abel Məhərrəmov 28 May - Respublika Günü münasibəti ilə bütün iştirakçıları təbrik edib. Xalq Cümhuriyyətinin çox böyük əsərləri olduğunu xatırladan akademik Abel Məhərrəmov Bakı Dövlət Universitetinin onun yadigarlarından biri olduğunu qeyd edib. Bildirib ki, Azərbaycan yenidən öz müstəqilliyini bərpa etsə də, dövrün ictimai-siyasi prosesləri müstəqilliyimizi təhlükə altına alırdı. Belə bir məqamda ulu öndər Heydər Əliyevin hakimiyyətə gəlişi Azərbaycanı parçalanma, dağılma təhlükəsindən qurtardı. Ümummilli liderin hakimiyyəti dövründə Azərbaycan çox böyük nailiyyətlərə imza atdı və həmin siyasət bu gün prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilir.

Professor Əli Həsənov isə məruzəsində Azərbaycan xalqının müstəqillik yolu, milli inkişafı və dövlət quruculuğu prosesinin bir sıra mühüm daxili və xarici amillərlə şərtləndiyini bildirib. Qeyd edib ki, Azərbaycan xalqı özünün siyasi, iqtisadi, mədəni intellektual potensialından və SSRİ-nin dağılması ilə əlaqədar yaranan əlverişli tarixi şəraitdən istifadə edərək 1991-ci ildə yenidən istiqlal




haqqına qovuşaraq müstəqil dövlətini bərpa etdi. Bu hadisə Azərbaycan xalqının indiyə qədərki malik olduğu ən böyük tarixi nailiyyəti hesab olunur. Müstəqil Azərbaycan dövlətinin qurulmasında, inkişafında və dünyaya tanıdılmasında ümummilli lider Heydər Əliyevin tarixi xidmətlərini diqqətə çatdıran Əli Həsənov qeyd edib ki, bu gün Azərbaycan Prezidenti İlham Əliyev ulu öndər Heydər Əliyevin siyasi kursunu davam etdirməklə yanaşı, həm də onu yeni şəraitin tələblərinə uyğun surətdə yaradıcılıqla inkişaf etdirir. Hazırda respublika öz inkişafının keçid dövrünü başa vuraraq bir çox sahələrdə yeni mərhələyə qədəm qoymaqdadır. Çıxışlardan sonra "M.Teatr Production"un ifasında Üzeyir Hacıbəyovun əsərləri əsasında hazırlanmış "Məsəl, ya..." tamaşası nümayiş etdirilib.

# Ulu öndər Heydər Əliyev ölkəmizi Azərbaycan Xalq Cümhuriyyətinin taleyini yaşamaq təhlükəsindən xilas etdi

*Yeni Azərbaycan Partiyası İcra katibinin müavini, Milli Məclisin İctimai birliklər və dini qurumlar komitəsinin sədri Siyavuş Novruzovun yap.org.az-a müsahibəsi*

***- Siyavuş müəllim, qarşıdan 28 May Respublika Günü gəlir. Azərbaycan tarixinin şanlı səhifələrindən birini təşkil edən Azərbaycan Xalq Cümhuriyyətinin dövlətçilik tariximizdə əhəmiyyəti nədən ibarətdir?***

- 28 May 1918-ci il tarixində Azərbaycan Xalq Cümhuriyyətinin yaradılması Azərbaycan xalqının tarixində çox böyük bir hadisədir. Cəmi 23 ay yaşamasına baxmayaraq, Məmməd Əmin Rəsulzadə və silahdaşları Şərqdə ilk demokratik respublika olan Azərbaycan Xalq Cümhuriyyətinin timsalında parlamentli respublika kimi yeni bir dövlətçilik ənənəsinin əsasını qoydular. Bu amil Azərbaycan xalqının milli dövlətçiliyə və demokratik dəyərlərə bağlılığının tarixi ənənələrinin mövcudluğundan xəbər verir. Təsadüfi deyil ki, biz bu gün müstəqilliyimizin bərpasından danışırıq, yəni 1920-ci ildə itirilmiş müstəqilliyimiz 1991-ci ildə yenidən bərpa olunub. Yeni tariximizdə Azərbaycan Xalq Cümhuriyyətinin mövcudluğu ölkəmizin Sovet İttifaqı tərkibində məhz müttəfiq respublika kimi yer tutmasını təmin edən başlıca amil kimi çıxış edir.

Məmnunluq hissi ilə vurğulamaq istərdim ki, müstəqilliyin bərpası məsələsində Azərbaycan xalqının Ümummilli lideri Heydər Əliyevin xüsusi və müstəsna rolu var. Azərbaycan Xalq Cümhuriyyətinin üçrəngli bayrağının ilk dəfə Naxçıvan Muxtar Respublikasında qaldırılması Ümummilli liderin adı ilə bağlıdır. Bu mənada, Muxtar Respublikanın dövlət rəmzlərinin bərpa edilməsini, milliləşdirmə siyasətinin uğurla həyata keçirilməsini, Naxçıvan MSSR adından "Sovet" və "Sosialist" sözlərinin çıxarılmasını, Naxçıvanda Kommunist Partiyasının fəaliyyətinin dayandırılmasını da xüsusi qeyd etmək lazımdır. Azərbaycanın müstəqilliyini itirmək təhlükəsi ilə qarşı-qarşıya qaldığı bir dövrdə Ulu öndər Heydər Əliyevin xalqın tələbi ilə ikinci dəfə hakimiyyətə gəlişi ilə ölkəmiz Azərbaycan Xalq Cümhuriyyətinin taleyini yaşamaq təhlükəsindən xilas oldu, öz müstəqilliyini qoruyub saxladı.

***- Şərqdə ilk demokratik respublika olan Azərbaycan Xalq Cümhuriyyətinin parlamentinin fəaliyyətini, ümumiyyətlə, həmin dövrdə qəbul edilmiş qanun və qərarların önəmini necə qiymətləndirirsiniz?***

- O zaman istər geopolitik, istərsə də iqtisadi baxımdan olduqca mürəkkəb şəraitdə fəaliyyət göstərməsinə baxmayaraq, Azərbaycan Xalq Cümhuriyyəti son dərəcə demokratik inkişaf yolu tutdu. 19 noyabr tarixli iclasda qeyd olundu ki, Azərbaycan ərazisində yaşayan bütün millətlər parlamentdə təmsil olunmalıdır. Azərbaycan Milli Şurası ölkə əhalisinin (2 milyon 750 min nəfər) hər 24 min nəfərinə 1 nəfər nümayəndə hesabı ilə 120 nəfərdən ibarət olmalı idi. Onlardan 80 nəfər müsəlmanları, 21 nəfər erməniləri, 10 nəfər rusları, 1 nəfər almanları və 1 nəfər yəhudiləri təmsil etməli idi. Sayları çox az olduğu üçün parlament seçkilərində iştirak etmək hüquqları olmadığı halda, gürcülər və polyaklar da hər etnosa bir deputatla parlamentdə təmsil olunmalı idilər. Eyni zamanda, Xalq Cümhuriyyəti Şərqdə ilk dəfə qadınlara seçmək və seçilmək hüququ verən dövlətdir. Burada bir haşiyə çıxıb fəxrlə deyə bilərik ki, bu baxımdan ölkəmiz hətta dünyanın inkişaf etmiş demokratik dövlətlərinin də böyük əksəriyyətin qabaqlayır.



Beləliklə, bir sıra beynəlxalq təzyiqlərə, daxili satqınların təxribatlarına baxmayaraq, nəhayət, 1918-ci ilin dekabr ayının 7-də Azərbaycan Parlamentinin təntənəli həyata keçirildi. Bu mərhələdən sonra parlamentin qəbul etdiyi qərarlar milli dövlətçiliyin əsaslarının gücləndirilməsinə böyük töhfə oldu.

Bütövlükdə, Cümhuriyyət dövründə çoxsaylı qərarlar qəbul və icra olundu ki, bunlar da milli dövlətçilik ənənələri baxımından müstəsna əhəmiyyət daşıyır. 1918-ci il 27 iyun tarixli qərara əsasən, Azərbaycan dili dövlət dili elan olundu. Buna görə də inzibati idarə orqanlarında, məhkəmə işində və başqa sahələrdə Azərbaycan dilini bilən ixtisaslı kadrlar hazırlanana qədər müvəqqəti olaraq digər dillərdən istifadəyə yol verilirdi. Təhsil sahəsində həyata keçirilən ilk mühüm tədbir isə məktəblərin milliləşdirilməsi oldu. Azərbaycan hökumətinin 1918-ci il 28 avqust tarixli qərarında göstərilirdi ki, bütün ibtidai tədris müəssisələrində təhsil şagirdlərin ana dilində aparılmalı və dövlət dili olan Azərbaycan dilinin tədrisi icbari surətdə həyata keçirilməlidir. Cümhuriyyət Parlamentinin 1919-cu ilin sentyabr ayının 1-də Bakı Dövlət Universitetinin təsis olunması haqqında qəbul etdiyi qanun xüsusi əhəmiyyətə malikdir. Beləliklə, Azərbaycan dilinə dövlət dili statusu verildi və digər dövlət orqanları ilə yanaşı, məhkəmə sisteminin də dövlət dilində fəaliyyət göstərməsi haqqında qərar qəbul etdi. Azərbaycan Xalq Cümhuriyyəti hökumətinin "Dövlət dili haqqında" 27 iyun 1918-ci il tarixli qərarında dövlət dilinin Azərbaycan türkcəsi kimi təsbit edildiyi, bundan sonra bütün məhkəmə orqanları və digər qurumlarda vəzifələr daşıyanların bu dili bilməsinin zəruri olacağı bəyan edilmişdir.

Bundan başqa, bir sıra məqamları da nəzərə çatdırmaq istəyirəm. Müstəqillik elan olunmuş Azərbaycan torpaqlarında dövlət suverenliyini təmin etmək, güclənən erməni-bolşevik təhdinin qarşısın almaq məqsədilə 1918-ci il iyunun 26-da Silahlı Qüvvələr yaradılmağa başladı. Habelə, 2 iyul 1918-ci il tarixdə isə Xalq Cümhuriyyəti Nazirlər Şurasının sədri və daxili işlər naziri Fətəli xan Xoyski ölkədə ilk polis bölüyünün yaradılması barədə əmr verdi və bununla da Azərbaycan polis orqanlarının əsası qoyuldu. 1918-ci il noyabrın 9-da isə Azərbaycanın indiki üçrəngli dövlət bayrağı qəbul edildi. Eyni zamanda, milli pul vahidi olan manat dövriyyəyə buraxıldı, Azərbaycan vətəndaşları haqqında qanun qəbul olundu və s. Bütün bunlar isə heç şübhəsiz, uzun illərdən bəri müstəmləkə üsul-idarəsi tərəfindən unutdurulmuş dövlətçilik ənənələrini bərpa etdi və gücləndirdi.

***- Azərbaycan Xalq Cümhuriyyətinin xarici siyasəti, beynəlxalq əlaqələri barədə nə deyə bilərsiniz?***

- Həmin dövrdə Azərbaycanın müstəqilliyinə qarşı real təhlükələr mövcud idi. Bilirsiniz ki, Çar generalı Denikinin ordusu Rusiyanın cənubunda, daha dəqiq desək, Dərbənddə yerləşmişdi və hər an işğal təhlükəsi gözlənilirdi. Belə mürəkkəb şərtlər altında Azərbaycan dünya dövlətləri ilə əlaqələr yaratmağa və inkişaf etdirməyə çalışırdı. Artıq 1919-cu ilin sonlarında Azərbaycan Xalq Cümhuriyyəti 20-dən çox ölkə ilə diplomatik əlaqələr yaratmışdı. Parlamentin sədri Əlimərdan bəy Topçubaşovun rəhbərlik etdiyi nümayəndə heyətinin uzunmüddətli səyləri, gərgin və səmərəli fəaliyyətinin nəticəsi kimi, Versal Ali Şurası tərəfindən 1920-ci ilin yanvarında Azərbaycanın de-fakto müstəqil dövlət kimi tanınmasına nail olundu. Bu çox böyük diplomatik uğur idi.

***- Cümhuriyyətin süqutu tarixçilər tərəfindən milli istiqlaliyyətə zərbə kimi qiymətləndirilir...***

- Azərbaycan Xalq Cümhuriyyətinin süqutunun obyektiv və subyektiv səbəbləri var idi. Mürəkkəb daxili və xarici şərait Azərbaycan Xalq Cümhuriyyətini çıxılmaz vəziyyətdə qoymuşdu. Buna paralel olaraq 27 aprel 1920-ci il tarixdə bolşevik Rusiyasının XI Ordusu Bakıya daxil oldu. Bu vaxt Xalq Cümhuriyyətinin ordu hissələri Qarabağda və Gəncəbasarda qiyamçı erməni qüvvələri ilə döyüşdə idi, azsaylı sərhəd qoşunları isə rus ordusuna müqavimət göstərə bilməmişdi. Bolşevik rəhbərliyi - Azərbaycan K(b)P MK və Rusiya K(b)P Qafqaz Diyar Komitəsinin Bakı Bürosu hakimiyyəti təhvil verməkbarədə Xalq Cümhuriyyətinin parlamentinə ultimatum verdi. Meydana çıxmış situasiyanı dəyərləndirən parlament gərgin müzakirələrdən sonra ultimatumla razılaşdı və hakimiyyətin kommunistlərə verilməsi barədə qərar qəbul edildi. Parlamentin qərarında Azərbaycanın istiqlaliyyətinin və ərazi bütövlüyünün qorunması, Milli Ordunun saxlanılması, siyasi partiyalara fəaliyyət azadlığı, Cümhuriyyətin dövlət xadimlərinə təqiblərin olmaması barədə şərtlər yer almışdı. Lakin bolşeviklər sonradan bu şərtlərin heç birinə əməl etmədi. Beləliklə, Azərbaycan Xalq Cümhuriyyəti Sovet Rusiyasının hərbi təcavüzü nəticəsində 1920-ci ilin aprel ayının 28-də süqut etdi.

***- Müasir müstəqil Azərbaycan haqlı olaraq Xalq Cümhuriyyətinin varisi kimi qiymətləndirilir. Ölkəmizin müstəqillik əldə etdikdən sonra keçdiyi inkişaf yolunu necə qiymətləndirirsiniz?***

- 1991-ci ilin oktyabrın 18-də Azərbaycan müstəqilliyini elan etməsinə baxmayaraq, müstəqilliyi itirmək təhlükəsi qarşısında idi. Ordu və dövlət quruculuğunda hər hansı bir əhəmiyyətli addımlar atılmırdı, daxili çəkişmələr nəticəsində Azərbaycan vətəndaş müharibəsi astanasında idi, separatizm baş qaldırmışdı, bədxah qonşularımızın Azərbaycana qarşı ərazi iddiaları və təcavüzkar siyasəti davam edirdi. Bu dövrdə bir sıra ərazilərimiz işğal olundu, Xocalı soyqırımı törədildi. Həmin dövrdə daxildəki bəzi qüvvələr hakimiyyətə gəlmək üçün müxəlif xarici kəşfiyyat orqanları ilə əlbir olaraq ölkəmizin müstəqilliyinə qarşı çıxırdılar. Siyasi partiyaların silahlı dəstələrə malik olması, ayrı-ayrı kriminal dəstələrin yaradılması, ictimai-siyasi sabitliyin total pozulması Azərbaycanı süqutun astanasına gətirib çıxarmışdı. Belə bir gərgin dönəmdə Azərbaycan xalqı Ümummilli lider Heydər Əliyevi hakimiyyətə dəvət etdi. Ümummilli liderin xalqın təkidli tələbləri ilə hakimiyyətə gəlməsindən sonra separatist meyillərin qarşısı alındı, silahlı dəstələr tərksilah edildi, ictimai-siyasi sabitlik təmin olundu, vətəndaş həmrəyliyi yaradıldı, "Əsrin müqaviləsi" imzalandı, Azərbaycanın beynəlxalq əlaqələri genişləndirildi və ən əsası düzgün qurulmayan xarici siyasətin uğursuz nəticələri aradan qaldırıldı. Bilirsiniz ki, müstəqillik əldə etdikdən sonra uğursuz və yanlış xarici siyasət nəticəsində Azərbaycan həm region dövlətləri ilə, həm də BMT-nin Təhlükəsizlik Şurasının üzv dövlətləri ilə normal münasibətlərə malik deyildi, müəyyən gərginliklər var idi. Ümummilli lider Heydər Əliyevin uğurlu xarici siyasəti nəticəsində bu münasibətlər normallaşdı, Azərbaycan geniş beynəlxalq əlaqələrə malik oldu.

Bundan sonra Azərbaycanın strateji inkişaf dinamikasının əsası qoyuldu. Bu gün Azərbaycan postsovet məkanında inkişaf dinamikasına görə ön sırada yer alan ölkələrdəndir ki, bunun da əsasında Ümummilli liderin təməlini qoyduğu inkişaf siyasəti dayanır.

***- Siyavuş müəllim, bu gün milli dövlətləri zəiflətməyə və təsir altına salmağa çalışan bəzi güclərin zaman-zaman Azərbaycana qarşı təzyiqləri də müşahidə edilir. Amma buna baxmayaraq, ölkəmiz müstəqil siyasətini davam etdirir, öz inkişaf yolunda uğur və inamla irəliləyir...***

- Azərbaycan kifayət qədər güclü bir dövlətdir. Bəzi beynəlxalq dairələr güclü liderə malik olan güclü dövlətləri sevmirlər. Çünki hesab edirlər ki, zəif liderlər olmalıdır ki, onların verdikləri tapşırıqları yerinə yetirsin. Azərbaycan azsaylı ölkələrdəndir ki, müstəqil siyasət həyata keçirir. Azərbaycan bütün dövlətlərlə bərabərhüquqlu əlaqələr yaradır, münasibətləri öz maraqları əsasında davam və inkişaf etdirir. Bunun da əsasında Ümummilli lider Heydər Əliyevin siyasi kursunu davam etdirən Prezident İlham Əliyevin qətiyyətli siyasi iradəsi dayanır. Azərbaycan xalqı öz Prezidentini dəstəkləyir, Prezident İlham Əliyev isə Azərbaycan dövlətinin maraqlarını qətiyyətlə müdafiə edir. Bu gün Azərbaycan beynəlxalq müstəvidə böyük nüfuza malikdir. Bir neçə il öncə Azərbaycan 155 ölkənin dəstəyi ilə BMT-nin Təhlükəsizlik Şurasının qeyri-daimi üzvü seçildi, iki illik üzvlük müddətində quruma sədrlik etdi. Eyni zamanda, ölkəmizdə çoxsaylı mötəbər beynəlxalq tədbirlər keçirilir. Azərbaycan dinlər və mədəniyyətlərarası dialoqa mühüm töhfələr verən tədbirlərə uğurla ev sahibliyi edir və ölkəmiz dünyanın multikultralizm mərkəzlərindən biri sayılır. Habelə, "Eurovision" beynəlxalq musiqi yarışmasının, ilk Avropa Oyunlarının və digər çoxsaylı beynəlxalq tədbirlərin müvəffəqiyyətlə keçirilməsi uğurlu və hərtərəfli siyasətin başlıca göstəricilərindəndir. Bütün bu nailiyyətlərin başlıca səbəbi heç şübhəsiz, Azərbaycanın geniş beynəlxalq əlaqələrə, ictimai-siyasi sabitliyə və davamlı inkişafa malik olmasıdır. Bu gün hamımız qürurla deyə bilərik ki, Azərbaycan dünya miqyasında öz sözünü deyən, öz yeri olan nüfuzlu və qüdrətli bir ölkədir.





## Gənclər Təşkilatları Milli Şurasının Hesabat-Seçki Konfransı keçirilib

***Gənclər Təşkilatları Milli Şurasının XIV Hesabat-Seçki Konfransı keçirilib. SİA-nın verdiyi xəbərə görə, tədbirdə hökumət rəsmiləri, gənclər təşkilatlarının üzvləri və və KİV nümayəndələri iştirak edib. Öncə Azərbaycan Respublikasının Dövlət Himni səslənib. Tədbirin açılışını edən GTMŞ-nin sədri Şahin Seyidzadə Milli Şuranın qazandığı uğurlardan danışıb: "Bu gün GTMŞ üçün əlamətdar günlərdən biridir. Gənclər Təşkilatına 20 il ərzində yeni üzvlər gəlsə də, müxtəlif simalar dəyişilsə də, təşkilat yeganə və vahid prinsipə-dövlətçilik ənənələrinə xidmət edib. 2012-ci ilin sonunda "Gənclər Proqramı" çərçivəsində hazırlanan 3 illik strategiya Milli Şuranın fəaliyyətində əsaslı təkan oldu. GTMŞ 2004-cü ilədək Məşvərət Şurasında təmsil olunub, uzun müddətdən sonra - 2014-cü ildən yenidən Şuraya üzv seçildi.***

2014-cü ilin sonunda GTMŞ Dünya Gənclər Assambleyasına tamhüquqlu üzv kimi qəbul olunub. Ötən müddət ərzində Şura təkcə Azərbaycanda deyil, Avropada da tanınan təşkilata çevrilib. GTMŞ-nın üzvlərinin sayı dörd il müddətində 72-dən 114-ə çatıb. Bu, çox böyük uğurdur. Bütün bu nailiyyətləri əldə edərkən daim dövlətin, ölkə başçısı cənab İlham Əliyevin dəstəyini və etimadını gördük. Ümid edirəm ki, qazanılan uğurlar davamlı olacaq". O, Şuranın uğurlu fəaliyyətinə göstərdiyi dəstəyə görə Prezident İlham Əliyevə, gənclər və idman naziri Azad Rəhimova təşəkkür edib. Daha sonra Milli Şuranın bir qisim üzvləri Fəxri Fərmanla təltif olunub.

Prezident Administrasiyasının İctimai-siyasi məsələlər şöbəsinin müdir müavini Tahir Süleymanov bildirib ki, ölkədə Ədliyyə Nazirliyində qeydiyyatdan keçən 3000-ə yaxın qeyri-hökumət təşkilatının 300-ü gənclər təşkilatıdır: "Bu, çox böyük nailiyyətdir. GTMŞ ölkənin ən böyük gənclər platformasıdır. Beynəlxalq qurumlarla səmərəli əməkdaşlıq edən Milli Şura 1997-ci ildə Avropa Gənclər Forumunun üzvü olub. Təşkilat öz fəaliyyətində gənclərin bilik və bacarığını Azərbaycanın dövlət müstəqilliyi yolunda möhkəmlənməsini, ölkənin beynəlxalq aləmdə layiqli yer tutmasını, demokratik dövlət quruculuğu işlərinə yönəltməsini özünün istiqaməti seçib. Biz də GTMŞ-na gələcək fəaliyyətində uğurlar arzulayırıq". Tədbirdə çıxış edən Azərbaycan Respublikasının Prezidenti yanında Gənclər Fondunun rəhbəri Fərhad Hacıyev GTMŞ-nın Azərbaycan gəncliyinə və dövlətçiliyinə xidmət etdiyini vurğulayıb: "GTMŞ 112 gənclər təşkilatı, minlərlə gənci öz ətrafında birləşdirən konfederativ qurum kimi, Azərbaycanın ən böyük gənclər platformasıdır. Bu gün ölkəmizin beynəlxalq arenada tanıdılması, təbliğ olunması üçün hər cür şərait yaradılıb. GTMŞ daim bu istiqamətdə öz fəallığını nümayiş etdirib". Ölkədə fəaliyyət göstərən digər təşkilatların nümayəndələri çıxış edərək Milli Şuranın qazandığı uğurlardan danışıb. Tədbirin ikinci hissəsində (sədr, sədr müavinləri, Mərkəzi Nəzarət Təftiş Komitəsi və İdarə Heyətinin üzvləri) seçkilər keçirilib. Nəticədə, Milli Şuranın baş katibi Seymur Hüseynov Təşkilatın yeni sədri seçilib.

# Sabunçu rayonunda 28 May - Respublika Günü münasibətilə tədbir keçirilib

***Dünən Yeni Azərbaycan Partiyası (YAP) Gənclər Birliyi və YAP Sabunçu rayon təşkilatının birgə təşkilatçılığı ilə 28 May- Respublika Günü münasibətilə tədbir keçirilib.***



Tədbiri giriş sözü ilə açan YAP Sabunçu rayon təşkilatının sədri Mehriban Abasquliyeva bildirib ki, bu tarixi gün Azərbaycan xalqının həyatına əlamətdar hadisə kimi daxil olub. O, qeyd edib ki, Şərqdə ilk demokratik dövlət quruluşunu yaratmış Azərbaycan Xalq Cümhuriyyəti istiqlaliyyətimizi elan edərək, xalqımızın müstəqillik əzmini nümayiş etdirib.



Tədbirdə "Yeni Azərbaycan" qəzetinin baş redaktoru, Milli Məclisin deputatı Hikmət Babaoğlu çıxış edərək bildirib ki, müstəqilliyini bərpa etdikdən sonra hər il 28 May- Respublika Günü ölkəmizdə böyük təntənə ilə qeyd edilir. Hikmət Babaoğlu onu da vurğulayıb ki, müsəlman Şərqində ilk demokratik respublika olan Azərbaycan Xalq Cümhuriyyəti ölkəmizin çoxəsrlik sosial-iqtisadi, ictimai-siyasi və mədəni inkişafının, xalqımızın milli oyanışı və dirçəlişi proseslərinin məntiqi nəticəsi kimi meydana gəlib. Hikmət Babaoğlu bildirib ki, Azərbaycan Xalq Cümhuriyyəti xalqımızın siyasi şüur səviyyəsinin, intellektual və mədəni potensialının, yüksək istedad və qabiliyyətinin göstəricisi idi.

YAP Gənclər Birliyinin sədri Seymur Orucov bildirib ki, Azərbaycan Xalq Cümhuriyyəti Avropanın demokratik dəyərləri ilə Şərq mədəniyyətinin xüsusiyyətlərini özündə birləşdirən yeni dövlət və cəmiyyət nümunəsi idi. Cəmi 23 ay fəaliyyət göstərməsinə baxmayaraq, ilk respublika dövründə həyata keçirilən tədbirlər müstəqil dövlətçiliyimizin əsaslarının yaradılması və gələcək inkişaf yolunun müəyyənləşdirilməsi baxımından mühüm əhəmiyyət kəsb edib.

Daha sonra çıxış edən YAP Sabunçu rayon təşkilatı gənclər birliyinin fəalları vurğulayıblar ki, bu gün Azərbaycan Respublikası Azərbaycan Xalq Cümhuriyyətinin sədaqətli və layiqli varisi kimi 1918-1920-ci illərdə əsası qoyulmuş demokratiya, demokratik dövlət quruculuğu proseslərini sürətlə həyata keçirir və inkişaf etdirir. Müasir, milli dövlətçilik strategiyasının bariz nümunəsi isə 1993-cü ildən Azərbaycanın əldə etdiyi tarixi əhəmiyyətli nailiyyətləridir. İlk əvvəl ictimai-siyasi sabitliyin bərqərar olması, milli inkişaf strategiyasının əsasının qoyulması, uğurlu və gələcəyə doğru yönləndirilmiş neft strategiyası, demokratik-hüquqi və dünyəvi dövlət quruculuğu istiqamətində əldə olunan nailiyyətlər bu göstəricilərdəndir. Hazırda müasir Azərbaycan Respublikası beynəlxalq birliyin etibarlı üzvü kimi qəbul olunub, dünya birliyinə sürətli inteqrasiya yolunu uğurla davam etdirir. Əsası Ulu Öndər Heydər Əliyev tərəfindən qoyulmuş milli inkişaf strategiyası yeni çalarlarla bu günümüzdə də tətbiq olunur.

***R.KAMALQIZI***

## XİN-dən Bolqarıstanın bəzi deputatlarının Azərbaycanın işğal olunmuş ərazilərinə qanunsuz səfəri ilə bağlı açıqlama



Ermənistan kütləvi informasiya vasitələrinin məlumatına görə, Bolqarıstanın Vətənpərvər Cəbhə Partiyasını təmsil edən parlament üzvləri Azərbaycanın işğal olunmuş ərazilərinə qanunsuz səfər ediblər. Özfəaliyyət xarakteri daşıyan bu qərəzli səfər Azərbaycanın Ermənistan tərəfindən işğal olunmuş ərazilərində hərbi təcavüz, işğal və qanlı etnik təmizləmə nəticəsində yaradılmış qondarma rejimin təşviqinə xidmət edən cəhd kimi qiymətləndirilir. Bu fikirlər Azərbaycan Xarici İşlər Nazirliyinin mətbuat xidmətinin rəhbəri Hikmət Hacıyevin açıqlamasında yer alıb. H.Hacıyev deyib: "Bu qanunsuz səfər Bolqarıstanda kimlərinsə Azərbaycan və Bolqarıstan arasında strateji tərəfdaşlıq müstəvisində dostluq və əməkdaşlıq əlaqələrinin inkişafından ciddi narahat olduqlarını bir daha göstərir. Təəssüflər olsun ki, rəsmi Yerevan Vyana görüşündə qeyd olunan hərtərəfli və substantiv danışıqlara zəmin hazırlamaq əvəzinə, bu kimi lüzumsuz və mənasız təxribatçı əməllərlə məşğuldur. Sözügedən qanunsuz və təxribatçı səfər ilə əlaqədar Azərbaycan Respublikasının Bolqarıstandakı səfirliyi bu ölkənin Xarici İşlər Nazirliyi və qanunverici orqanına müraciət edəcək və narahatlığımızı bildirəcək. Müvafiq dəqiqləşdirmə aparıldıqdan sonra onların adları arzuolunmaz şəxslər siyahısına daxil ediləcək".

## "Həmsədrlər Ermənistan və Azərbaycan XİN rəhbərləri ilə görüşəcək"



"Hələ ki, Azərbaycan Ermənistan arasında hər hansısa sənədin imzalanması gözlənilmir. Çünki, ortada heç bir sənəd yoxdur". SİA-nın erməni mətbuatına istinadən verdiyi xəbərə görə, bunu Ermənistanın xarici işlər naziri Edvard Nalbadyan deyib. O bildirib ki, danışıqların növbəti mərhələsinin iyun ayında keçirilməsi nəzərdə tutulsa da, hələ ki yeri məlum deyil: "Danışıqlar şəraitini bərpa etmək lazımdır. Vyanada keçirilən görüşdə üç ölkənin həmsədrləri danışıqların davam etdirilməsi ilə bağlı üzərilərinə öhdəliklər götürdülər". Nalbadyanın sözlərinə görə, iyunun əvvəlində ATƏT-in Minsk Qrupu həmsədrlərinin Ermənistan və Azərbaycanın xarici işlər nazirləri ilə görüşəcəyi ehtimal edilir: "Yəqin ki, bu görüşlərdə tərəflər Vyanada keçirilən iclasda əldə olunan razılaşmaların tam həyata keçirilməsini müzakirə edəcək. Bu, yüksək səviyyəli görüşlərin gələcək etaplarına nəzər yetirməyə şərait yaradacaq".

# 28 May-Respublika Günü Təbrizdə qeyd olunub

***28 May-Respublika Günü Təbrizdə Azərbaycanın bu şəhərdəki baş konsulluğunun təşkilatçılığı ilə keçirilən təntənəli tədbirlə qeyd olunub. Azərbaycanın və İranın dövlət himnləri səsləndikdən sonra baş konsul əvəzi Şahin Əhmədov çıxış edib. O deyib ki, 1918-ci il mayın 28-də Azərbaycan Şərqdə ilk dəfə olaraq öz müstəqilliyini elan edib və demokratik dövlət qurub. Bu dövlət cəmi 23 ay yaşasa da, tarixdə mühüm izlər buraxıb. Azərbaycan xalqı bütün dünyaya göstərib ki, müstəqil və demokratik dövlət qurub, onu inkişaf etdirməyə qadirdir.***



Azərbaycan-İran əlaqələrindən danışan Ş.Əhmədov bildirib ki, hər iki ölkənin prezidentləri siyasi iradə nümayiş etdirərək, əlaqələri inkişaf etdirmək və xalqların maraqlarını təmin etmək qərarını veriblər. Məhz prezidentlərin siyasi addımları nəticəsində, bu gün münasibətlər yüksələn xətlə inkişaf edir. Qarşılıqlı səfərlər və imzalanan sənədlərin icrası iqtisadi, siyasi və mədəni əlaqələrin yaxınlaşmasına səbəb olub.



Tədbirdə iştirak edən Azərbaycan Respublikası Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədri Mübariz Qurbanlı çıxışında Azərbaycan Xalq Cümhuriyyətinin yaranması, fəaliyyəti və tarixi əhəmiyyəti haqqında danışıb. O, XX əsrin sonunda Azərbaycan xalqının 70 illik əsarətdən sonra yenidən müstəqilliyə qovuşduğunu, bu müstəqilliyin Ümummilli Lider Heydər Əliyevin sayəsində qorunub saxlanıldığını bildirib. Ulu Öndərin əsasını qoyduğu hüquqi və dünyəvi dövlət quruculuğu siyasətinin bu gün Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirildiyi, Azərbaycanın ictimai-siyasi, sosial-iqtisadi, elmi-mədəni həyatında və beynəlxalq əlaqələrində böyük nailiyyətlər əldə olunduğu vurğulanıb. Komitə sədri Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli ilə bağlı aparılan danışıqlar prosesi haqqında da məlumat verərək, bildirib ki, işğalçı dövlətin qeyri-konstruktiv mövqeyi, beynəlxalq vasitəçilərin ikili standartlardan çıxış etməsi təəssüf doğurur. Azərbaycan, nəyin bahasına olursa-olsun, öz ərazi bütövlüyünü bərpa edəcək.

İranın Şərqi Azərbaycan vilayətinin valisinin müavini Səid Şəbüstəri Xiyabanı İran-Azərbaycan əlaqələrinin əhəmiyyətindən, ortaq dəyərlərimizdən söhbət açıb. O, İran tərəfinin təbriklərini Azərbaycan rəhbərliyinə və xalqına çatdırıb.

Sonra Milli Məclisin Mədəniyyət Komitəsinin sədri Rafael Hüseynov çıxış edərək, Azərbaycan və İran xalqlarının ortaq tarixi və mədəniyyəti haqqında tədbir iştirakçılarına məlumat verib.

Çıxışlardan sonra Azərbaycanın sosial-iqtisadi inkişafını, turizm potensialını, mədəniyyətini və İranla dostluq münasibətlərini əks etdirən film nümayiş olunub.

Tədbirdə İranın dövlət rəsmiləri, Türkiyə Respublikasının Təbrizdəki baş konsulu, kütləvi informasiya vasitələrinin və şəhər ictimaiyyətinin nümayəndələri iştirak ediblər.

**A.SƏMƏDOVA**



# Təhsil naziri qəbul keçirib

Mayın 26-da təhsil naziri Mikayıl Cabbarov Xırdalan şəhərindəki Heydər Əliyev Mərkəzində Abşeron, Qubadlı, Zəngilan rayon və Sumqayıt şəhər sakinlərini qəbul edib. Nazirliyin mətbuat xidmətindən SİA-ya verilən xəbərə görə, qəbulda Abşeron rayonunda və Sumqayıt şəhərində müvəqqəti məskunlaşmış məcburi köçkünlər də iştirak ediblər. Mərkəzi icra hakimiyyəti orqanları rəhbərlərinin 2016-cı ilin may ayında şəhər və rayonlarda vətəndaşların qəbulu cədvəlinə uyğun olaraq, keçirilən qəbulda vətəndaşlar əsasən, müəllimlərin işə qəbulu və ya iş yerinin bir məktəbdən, həmçinin, bir rayondan digərinə dəyişdirilməsi, işə bərpa olunma, təhsil sənədlərinin tanınması, tələbələrin bir ali təhsil müəssisəsindən digərinə köçürülməsi, təhsil haqqı və bir sıra digər məsələlərlə əlaqədar müraciət ediblər. Qəbula gələn vətəndaşların müraciətləri dinlənilib və əksər məsələlər yerindəcə həllini tapıb. Bir sıra müraciətlərlə bağlı nazirliyin müvafiq qurumlarına tapşırıqlar verilib. Bəzi vətəndaşların nazirliyin səlahiyyətlərinə aid olmayan və ya şəxsi xarakter daşıyan müraciətləri isə müvafiq qurumlara çatdırılmaq üçün qeydə alınıb.

# Multikulturalizm sahəsində ən uğurlu model kimi Azərbaycan nümunəsi öyrənilir

***Mayın 26-da Siyəzən şəhərində Yeni Azərbaycan Partiyası (YAP) Qadınlar Şurasının təşkilatçılığı ilə "Multikultural dəyərlər və azərbaycançılıq" mövzusunda konfrans keçirilib. AZƏRTAC xəbər verir ki, Siyəzən Şəhər Mədəniyyət Sarayında keçirilən tədbirdə YAP Quba, Qusar, Xaçmaz, Şabran, Siyəzən və Xızı rayonlarının Qadınlar Şurasının sədrləri və ictimaiyyətin nümayəndələri iştirak ediblər.***



YAP Siyasi Şurasının üzvü, Milli Məclisin deputatı Məlahət İbrahimqızı bildirib ki, multikultural dəyərlərin Azərbaycan modelinin təbliği istiqamətində ölkəmizdə bir sıra tədbirlər həyata keçirilir. YAP ölkənin ən nüfuzlu və qüdrətli siyasi qüvvəsidir. Bu baxımdan YAP Qadınlar Şurasının bu istiqamətdə gördüyü işlər təqdirəlayiqdir. Paytaxtla yanaşı, regionlarda da bu cür tədbirin keçirilməsi, multikulturalizmin Azərbaycan modelinin təbliğ olunması əlamətdar hadisədir.



Azərbaycanda multikulturalizmin dövlət siyasətinin tərkib hissəsini təşkil etdiyini vurğulayan natiq multikultural nəzəriyyənin əsasında ulu öndər Heydər Əliyevin müəllifi olduğu azərbaycançılıq ideologiyasının dayandığını qeyd edib. Bildirilib ki, bu dəyərlər dünyada ölkəmizin nüfuzunu daha da artırır. Ölkəmizdəki tolerant və multikultural dəyərlər etnik mənsubiyyətindən asılı olmayaraq bütün insanların birləşməsinə səbəb olub. Tolerantlıq və multikulturalizmin Azərbaycan modeli bütün dünyada böyük rəğbətlə qarşılanır. Multikulturalizm sahəsində ən uğurlu model kimi Azərbaycan nümunəsi öyrənilir.

Konfransda YAP Qadınlar Şurasının İdarə heyətinin üzvü Zərifə Quliyeva və partiyanın rayon təşkilatları qadınlar şuralarının nümayəndələri çıxış edərək azərbaycançılıq ideologiyası və multikulturalizmin bir-birini tamamlayan dəyərlərə çevrildiyini vurğulayıblar. Tədbirdə multikultural dəyərlərlə yanaşı, qadın hüquqları, qadınların ölkəmizin inkişafındakı rolu və başqa mövzular ətrafında fikir mübadiləsi aparılıb.

# Suraxanıda "Azərbaycanın müstəqilliyi: beynəlmiləlçilik, birgəyaşayış və multikulturalizm ənənələri" mövzusunda konfrans keçirilib




***28 May - Respublika Günü münasibəti ilə Suraxanı rayonu Heydər Əliyev Mərkəzinin, Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının və Suraxanı rayon icra hakimiyyətinin birgə təşkilatçılığı ilə "Azərbaycanın müstəqilliyi: beynəlmiləlçilik, birgəyaşayış və multikulturalizm ənənələri" mövzusunda konfrans keçirilib. Öncə konfrans iştirakçıları Ulu Öndərin Suraxanı rayon icra hakimiyyətindəki büstünü ziyarət etdikdən sonra Heydər Əliyev Parkında rayonda yaşayan müxtəlif xalqların nümayəndələrinin hazırladığı sərgiyə və "Gözəl şəhər: Bakı riqalıların gözü ilə" adlı foto-sərgiyə baxıblar.***

Rayon icra hakimiyyətinin akt zalında keçirilən konfrans dövlət himninin səsləndirilməsi ilə başlayıb. Konfransı giriş sözü ilə açan rayon icra hakimiyyətinin başçısı İlqar Abbasov Azərbaycan Xalq Cümhuriyyətinin 98 illiyi münasibəti ilə konfrans iştirakçılarını təbrik edərək qeyd edib ki, ölkəmiz Şərqin ilk demokratik respublikası olmuşdur:"98 il bundan əvvəl - 1918-ci ilin may ayının 28-də Şərqdə ilk demokratik üsul-idarəyə əsaslanan cümhuriyyət quruldu. Azərbaycan Xalq Cümhuriyyəti ilk dəfə olaraq Azərbaycan adlı müstəqil dövlətin əsasını qoydu. Bugünkü konfransın məqsədi bir daha tarixə nəzər salmaq, 23 ay müstəqil yaşayan Azərbaycan Xalq Cümhuriyyəti dövründə və 71 il sovetlər birliyinin tərkibində yaşadıqdan sonra 1991-ci ilin 18 oktyabrında yenidən müstəqillik əldə edən ölkəmizdə multikultural dəyərlərin cəmiyyətin inkişafına təsirlərini diqqətə çatdırmaqdır".

O bildirib ki, Azərbaycan xalqının Ümummilli Lideri, Ulu Öndər Heydər Əliyevin dövlətçilik dühası, siyasi müdrikliyi və uzaqgörənliyi nəticəsində cəmiyyətin multikultural xarakteri siyasi və hüquqi prinsiplər səviyyəsinə yüksəldilmiş, Azərbaycanın dövlət siyasətinin prioritet istiqamətlərindən biri olaraq qəbul edilmişdir.

Ulu Öndər Heydər Əliyev siyasətini böyük uğurla davam etdirən möhtərəm Prezidentimiz Cənab İlham Əliyevin müdrik rəhbərliyi altında davamlı inkişaf edən ölkəmiz artıq dünyada multikulturalizm, sivilizasiyalar arasında dialoq məkanı kimi qəbul edilir.

Konfransda çıxış edən Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının rektoru, AMEA-nın həqiqi üzvü Urxan Ələkbərov qeyd edib ki, beynəlxalq anlayışda multikulturalizm eyni ölkədə yaşayan xalqların mədəniyyət hüquqlarını tanıyan humanist dünyagörüşü və ona uyğun siyasət kimi qəbul olunur. Məsələyə bu prizmadan yanaşdıqda, Azərbaycanda müxtəlif millətlərin, dinlərin və mədəniyyətlərin nümayəndələrinin sərbəst



yaşamaları üçün zəruri şəraitin mövcudluğunu, dövlətin bu istiqamətdə üzərinə düşən vəzifələri layiqincə yerinə yetirdiyini görürük.

Konfransda Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının birinci prorektoru, fəlsəfə elmləri doktoru, professor Əlikram Abdullayev "Multikulturalizm nəzəri fikrin işığında", Azərbaycan Respublikasının Millətlərarası, Multikulturalizm və Dini Məsələlər üzrə Dövlət Müşaviri Xidmətinin baş məsləhətçisi, professor Etibar Nəcəfov "Müasir dövrdə Azərbaycan Respublikasının daxili və xarici siyasətində multikulturalizm", AMEA-nın Arxeologiya və Etnoqrafiya İnstitutunun şöbə müdiri, Abşeron Arxeoloji Ekspedisiyasının rəhbəri, tarix üzrə fəlsəfə doktoru İdris Əliyev "Suraxanı rayonunda multikulturalizmin tarixi kökləri (tarixi-etnoqrafik materiallar əsasında)" adlı məruzələrlə çıxış ediblər. Natiqlər Azərbaycan multikulturalizminin mühüm istiqamətlərindən, onun ideya əsaslarından, nəzəri müddəalarından, praktik təzahürlərindən danışıblar.

***ZÜMRÜD***





# "Multikultural dəyərlər və azərbaycançılıq"

Yeni Azərbaycan Partiyası (YAP) Nəsimi rayon təşkilatında hakim partiyanın Qadınlar Şurasının təşkil etdiyi "Multikultural dəyərlər və azərbaycançılıq" mövzusunda konfrans keçirilib. SİA-nın məlumatına görə, tədbirdə YAP Siyasi Şurasının üzvü, hakim partiyanın Nəsimi rayon təşkilatının sədri, millət vəkili Məlahət İbrahimqızı, Bakı Slavyan Universiteti üzrə ərazi ilk partiya təşkilatının sədri, BSU-nun prorektoru Aygül Hacıyeva, YAP Nəsimi rayon təşkilatının İdarə Heyyətinin üzvü, Ağbirçəklər Şurasının sədri Zərifə Quliyeva, YAP Nizami rayon təşkilatının Qadınlar Şurasının sədri Sevda Abdullayeva, YAP Xətai rayon təşkilatının Qadınlar Şurasının sədri Aygün Əhmədli, YAP Nəsimi rayon təşkilatının Qadınlar Şurasının üzvü, 16 saylı Texniki humanitar liseyinin direktoru Ülviyyə Vəliyeva, YAP Qadınlar Şurasının sədr müavini, 1 N-li Şəhər Klinik Xəstəxanasının baş həkiminin müavini Məhəbbət İbrahimova və KİV nümayəndələri iştirak edib.

YAP Nəsimi rayon təşkilatının sədri Məlahət İbrahimqızı bu kimi tədbirlərin keçirilməsinin zəruriliyindən söz açaraq söyləyib ki, ölkəmizdə mövcud olan multikultural dəyərlərin düzgün təbliğatına böyük ehtiyac var: "Bu cür tədbirlərin keçirilməsi ölkəmizin, xalqımızın multikultural dəyərlərə verdiyi qiymətin göstəricisidir. Mədəniyyətin özü də bu dəyərlərə daxildir. Azərbaycanın musiqisi, muğamı bütün dünyada təbliğ olunur. Ölkəmizin birinci xanımı Mehriban Əliyeva tərəfindən bu istiqamətdə mühüm işlər görülür". Onun sözlərinə görə, Azərbaycançılıq ideologiyası Ulu Öndər Heydər Əliyev hakimiyyətə gəldikdən sonra meydana gəlib: "Əsası Ümummilli Lider Heydər Əliyev tərəfindən qoyulan ideologiya sayəsində bütün dünya Azərbaycan xalqını, millətini tanımış oldu. Bu gün bu dəyərlərin üzərinə multikultural dəyərlər də əlavə edilir".

Bakı Slavyan Universiteti üzrə ərazi ilk partiya təşkilatının sədri, BSU-nun prorektoru Aygül Hacıyeva Multikultural dəyərlərin geniş mahiyyətə malik olduğunu dilə gətirərək qeyd edib ki, multikulturalizm terrorun, müharibənin qarşısının alınmasında böyük əhəmiyyətə malikdir: "Hər bir millət firavan, rahat, sülh şəraitində yaşamaq istəyir. Bu istiqamətdə biz qadınların üzərinə də böyük məsuliyyət düşür. Belə ki, biz qadınlar bu cür dəyərləri daha geniş şəkildə təbliğ etməli, işlədiyimiz, olduğumuz yerlərdə multikultural dəyərlərin vacibliyini qeyd etməliyik". Tədbirdə digər çıxış edənlər də qeyd edib ki, ölkəmizdəki tolerantlıq və multikultural dəyərlər etnik mənsubiyyətindən asılı olmayaraq, bütün insanların birləşməsinə səbəb olub.

# "Övladlığa götürmədə nəzarət mexanizmi"

## Bu mövzuda Nəsimi rayon icra hakimiyyətində təlim keçirilib

***Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin 2016-cı ilin Tədbirlər Planı çərçivəsində Bakı şəhəri rayonlarının icra hakimyyətlərinin qəyyumluq və himayə orqanlarının rəhbərlərinin iştirakı ilə "Övladlığa götürmədə nəzarət mexanizmi" mövzusunda təlimlər keçirilir. Növbəti tədbir Nəsimi rayon icra hakimiyyətində baş tutub.***



Tədbiri Nəsimi rayon icra hakimiyyəti başçısının müavini, "Qəyyumluq və himayəçilik komissiyası"nın sədri Gülarə Verdiyeva açaraq, təlim iştirakçılarını salamlayb və bildirib ki, təlimin məqsədi yerli və ölkələrarası övladlığa götürmə mexanizmləri, bu sahədə qurumlararası əməkdaşlıq və valideyn himayəsindən məhrum olmuş uşaqların uçotunun aparılması ilə bağlı məsələlərin müzakirə olunmasıdır.

Tədbirdə Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin sədr müavini Sədaqət Qəhrəmanova və komitənin hüquqi təminat şöbəsinin müdir müavini Vəsilə Möhsümovaya bildiriblər ki, qanunvericilikdə övladlığa götürülən uşaqların həyatına nəzarət etmək funksiyası yerli övladlığa götürmə zamanı qəyyumluq və himayəçilik komissiyalarına, ölkələrarası övladlığa götürmə zamanı komitəyə həvalə edilmiş, bunu nəzərə alaraq, tədbirdə övladlığa götürülən uşaqların həyatına nəzarət etmək mexanizmi ilə bağlı təqdimat edilibdir.



Çıxışlardan sonra mövzu ətrafında fikir mübadiləsi aparılıb.

Sonda qonaqlar Nəsimi rayonunda yerləşən 1 saylı Körpələr Evində valideyn himayəsindən məhrum olmuş uşaqlar və onlara yaradılan şəraitlə yaxından tanış olublar.

***R.HÜSEYNOVA***

# “Multikulturalizm uşaqların gözü ilə”

***Azərbaycan Respublikası Təhsil Nazirliyinin Respublika Texniki Yaradacılıq Mərkəzi, Xətai rayon icra hakimiyyəti, Xətai rayon Yeni Azərbaycan Partiyası, Mədəniyyət və Turizm Nazirliyinin Şuşa rayon şöbəsinin təşkilatçılığı ilə “Multikulturalizm uşaqların gözü ilə” adlı tədbir keçirilib.***





SİA-nın məlumatına görə, tədbirin keçirilməsində məqsəd insanlar arasında sevgi, dostluq və həmrəyliyin möhkəmlənməsinə təkan vermək, müxtəlif xalqların adət-ənənələrinə hörmət və onlar arasında mədəni körpünün yaradılmasıdır. Əvvəlcə qonaqlar Respublika Texniki Yaradıcılıq Mərkəzinin dərnək üzvlərinin 20 ölkənin mədəniyyətini, incəsənətini, tarixini əks etdirən əl işlərinə və müxtəlif millətlərin milli geyimləri ilə yaxından tanış olublar. Daha sonra tədbir YAP-ın Xətai rayon təşkilatının akt zalında davam etdirilib. Xətai rayon icra hakimiyyətinin başçısı Razim Məmmədov çıxış edərək deyib ki, Multikulturalizm Azərbaycan xalqının həyat tərzidir: “Əsrlərdir ki, xalqımız tolerantlıq, dözümlülük, başqa dinlərə və mədəniyyətlərə hörmət prinsiplərini həyat tərzinə çevirərək bu prosesə mühüm töhfələr verib. Ona görə də Prezident İlham Əliyevin 2016-cı ili Azərbaycanda “Multikulturalizm ili” elan etməsi heç də təsadüfi deyil və bunun dərin tarixi kökləri var”.



Şuşa rayon icra hakimiyyətinin başçısı, Dağlıq Qarabağın Azərbaycanlı İcmasının rəhbəri Bayram Səfərov isə diqqətə çatdırıb ki, bu cür tədbirlərin keçirilməsi ölkəmizin, xalqımızın multikultural dəyərlərə verdiyi qiymətin göstəricisidir: “Mədəniyyətin özü də bu dəyərlərə daxildir. Azərbaycanın musiqisi, muğamı bütün dünyada təbliğ olunur. Ölkəmizin birinci xanımı Mehriban Əliyeva tərəfindən bu istiqamətdə mühüm işlər görülür”. Qeyd edək ki, tədbirdə Milli Məclisin deputatları, səfirliklərdən nümayəndələr, Təhsil Nazirliyinin, YAP-ın nümayəndələri, Xətai rayon icra hakimiyyətinin başçısı və nümayəndələri, Şuşa rayon icra hakimiyyətinin başçısı, Mədəniyyət və Turizm Nazirliyinin Şuşa rayon şöbəsinin müdiri və nümayəndələri iştirak ediblər.

# “İrəvanın maddi və mənəvi irsi”





***Dünən AMEA-nın Əsas binasında gənc tədqiqatçıların “İrəvanın maddi və mənəvi irsi” mövzusunda elmi-praktik konfransı keçirilib.***

Tədbir Mədəniyyət və Turizm Nazirliyi, AMEA-nın A.A.Bakıxanov adına Tarix İnstitutu və “Bizim nəsil” Gənclərin Regional İnkişaf Assosiasiyası tərəfindən təşkil olunub.

“Bizim Nəsil” Gənclərin Regional İnkişaf Assosiasiyasının sədri Nurəddin Mehdiyev bildirib ki, konfransın keçirilməsinin əsas məqsədi orta əsr şəhər mədəniyyətinə malik Azərbaycanın İrəvan şəhəri, onun dövlətçiliyimizin tarixindəki yeri, ictimai-siyasi və mədəni rolunu və eyni zamanda, bu qədim torpaqlarımıza köçürülmüş ermənilərin tarixi saxtalaşdırmalarını elmi əsaslarla araşdırmaqdan ibarətdir.

Tədbirdə İrəvanın maddi-mədəniyyət abidələrinin, mənəvi irsin tədqiqi və təbliğində gənc tədqiqatçıların rolunun genişləndirilməsinin vacibliyi vurğulanıb.

Tarix İnstitutunun direktoru, AMEA-nın müxbir üzvü Yaqub Mahmudov bildirib ki, hazırda Ermənistanın yerləşdiyi ərazi yaxın keçmişdə - XIX əsrin əvvəllərində Azərbaycan dövləti olan İrəvan xanlığının torpaqları olub:“İrəvan xanlığının yarandığı ərazi ən qədim türk torpaqlarıdır. Azərbaycan xalqının və digər türk xalqlarının qəhrəmanlıq eposu olan “Kitabi-Dədə Qorqud” dastanlarında təsvir olunan bir çox mühüm tarixi hadisələr, proseslər Azərbaycanın, məhz bu regionunda - İrəvan xanlığının ərazisində cərəyan edib”.

Y.Mahmudov qeyd edib ki, Tarix İnstitutunun kollektivi tərəfindən hazırlanmış “İrəvan xanlığı: Rusiya işğalı və ermənilərin Azərbaycan torpaqlarına köçürülməsi” kitabı Azərbaycan, ingilis, rus, rumın, italyan, ispan və ərəb dillərində çap olunub. Alim vurğulayıb ki, ermənilərin XIX əsrdə Azərbaycan torpaqlarına köçürülməsi tarixi həqiqətdir. Təkzibolunmaz tarixi faktlardan biri də budur ki, tanınmış rus rəssamı V.İ.Maşkov 1828-ci ildə ermənilərin Azərbaycan torpaqlarına köçürülməsinə ayrıca rəsm əsəri həsr edib.

Milli Məclisin deputatları Qənirə Paşayeva, Musa Qasımlı və digər çıxış edənlər də İrəvan torpağının qədim Azərbaycan torpağı olduğu barədə tarixi gerçəklikləri dünya ictimaiyyətinə daha ətraflı çatdırılmasının əhəmiyyətindən, ermənilərin tarixi həqiqətləri daim saxtalaşdırmağa cəhd göstərdiklərindən danışıblar.

Sonra gənc tədqiqatçıların “İrəvan - qədim Azərbaycan torpağı (mədəni-tarixi aspektdə)”, “İrəvan şəhəri - erməni terrorunun ilk hədəfi”, “İrəvanın azərbaycanlı ziyalılarının maarifçilik fəaliyyəti (XIX-XX əsrlərdə)”, “İslam memarlıq abidələri sırasında İrəvan məscidləri”, “Azərbaycanın qala şəhəri - İrəvan”, “İrəvanda Azərbaycan incəsənəti nümunələri (tarixi aspektdə)” və digər mövzularda məruzələri dinlənilib.

***NƏZAKƏT***

## Akademik Kamal Talıbzadənin kitablarının təqdimatı olub

***AMEA Nizami adına Ədəbiyyat İnstitutunda Azərbaycan ədəbiyyatşünaslıq elminin görkəmli nümayəndəsi, əməkdar elm xadimi, akademik Kamal Talıbzadənin “Azərbaycan ədəbi tənqidinin tarixi (1800-1920-ci illər)” və “Seçilmiş əsərlər” kitablarının təqdimat mərasimi keçirilib.***



Tanınmış elm və mədəniyyət nümayəndələri, Ədəbiyyat İnstitutunun, AR Mədəniyyət və Turizm Nazirliyinin, Mədəniyyətşünaslıq üzrə Elmi-Metodiki Mərkəzin və Abdulla Şaiqin Ev Muzeyinin əməkdaşlarının iştirakı ilə keçirilən tədbiri giriş sözü ilə AMEA-nın vitse-prezidenti, institutun direktoru, akademik İsa Həbibbəyli açaraq, Kamal Talıbzadənin həyat və yaradıcılığı barədə ətraflı məlumat verib. İ.Həbibbəyli qeyd edib ki, XX əsr Azərbaycan ədəbiyyatşünaslıq elminin ən görkəmli nümayəndələrindən biri olan akademik Kamal Talıbzadə Azərbaycan ədəbi tənqidinə, onun tarixi və nəzəriyyəsinin öyrənilməsinə bütöv bir ömür sərf etmişdir: “Yaradıcılığında ədəbi əlaqələrə böyük önəm vermiş görkəmli alim bu istiqamətdə görülən işləri daha da zənginləşdirmişdir. O, həmişə gəncliyə açıq olmuş, zəhmətkeş və istedadlı gənclərə diqqət və qayğısını əsirgəməmişdir. Akademik Kamal Talıbzadə iyirminci yüzillik Azərbaycan ədəbiyyatının və ədəbiyyatşünaslığının geniş elmi portretini yaratmışdır. Onun qiymətli elmi əsərləri müstəqillik dövrü Azərbaycan ədəbiyyatşünaslıq elminin müasir inkişaf yollarına işıq salır”.

Ədəbiyyat İnstitutunun şöbə müdiri, filologiya üzrə elmlər doktoru Vaqif Yusifli “Görkəmli tənqidçi-ədəbiyyatşünas Kamal Talıbzadə” mövzusunda məruzə ilə çıxış edərək, bildirib ki, ədəbiyyat tarixçiliyi Kamal Talıbzadənin tənqidçi təfəkkürünün möhkəm dayaqlarıdır:“Ədəbi prosesin təqdimatında ədəbiyyat tarixinin faktlarına və hadisələrinə əsaslanmaqla, ədəbi gedişata istinad etməklə fikir və mülahizə yürütmək, dərin elmi ümumiləşdirmələr aparmaq alimin tənqidçi kimi münasibətini ifadə edən baxışlarının təzahürüdür”.

Tədbirdə digər çıxış edənlər XX əsr Azərbaycan ədəbi tənqidinin görkəmli nümayəndəsi Kamal Talıbzadənin ənənəvilik və müasirlik məsələlərinə xüsusi əhəmiyyət verdiyini bildirərək, onu Azərbaycan ədəbiyyatşünaslıq elminin formalaşmasında mühüm rol oynamış cəsarətli və obyektiv tənqidçi kimi səciyyələndiriblər.

***ZÜMRÜD***

## Aqiyə Naxçıvanlı: “Şəxsiyyətin formalaşmasında sosial mühit böyük rol oynayır”

“Azərbaycan ailəsi dövlətin qayğısı ilə tam əhatə olunub”. Bu fikri Milli Məclisin Ailə, qadın və uşaq məsələləri komitəsinin sədri Aqiyə Naxçıvanlı deyib. A.Naxçıvanlı bildirib ki, şəxsiyyətin formalaşmasında sosial mühit böyük rol oynayır. Onun sözlərinə görə, bununla belə yenə də məişət zorakığı hallarına rast gəlinir. “Azərbaycan parlamenti bu problemlə bağlı müvafiq qanun qəbul edib. Əlaqədar dövlət orqanları da bu yöndə lazımi tədbirlər həyata keçirirlər. Hesab edirəm ki, qadınlara qarşı törədilən cinayətlərin statistikasının aparılması təkmilləşdirilməlidir. Hər il Milli Məclisdə insan alveri ilə bağlı hesabat dinlənilir. Lakin başqa-başqa qurumların hesabatlarına baxanda məlum olur ki, rəqəmlər bir-birinə uyğun gəlmir. Ona görə də baza təkmilləşdirilməlidir ki, statistika dəqiq olsun”- deyə, komitə sədri vurğulayıb.

# Qusarda 28 May - Respublika Gününə həsr edilmiş tədbir keçirilib





***YAP Qusar rayon təşkilatının və Qusar rayon icra hakimiyyətinin birgə təşkilatçılığı ilə 28 May Respublika Gününə həsr edilmiş tədbir keçirilib.***

Tədbiri giriş sözü ilə açan YAP Siyasi Şuranın üzvü, partiyanın Qusar rayon təşkilatının sədri David İbramxəlilov çıxış edərək, Azərbaycan Xalq Cumhuriyyətinin yaranma tarixindən, müsəlman Şərqində ilk Demokratik Respublikasının 23 aydan sonra süquta uğramasının səbəblərindən danışıb. Qeyd edib ki, müasir Azərbaycan Respublikası öz tarixi kökləri ilə 98 il əvvəl - 1918-ci il 28 may tarixində müstəqilliyini bəyan etmiş Azərbaycan Xalq Cümhuriyyətinə birbaşa bağlıdır, onun varisi və davamçısıdır:"Hər il Respublika Gününü sonsuz iftixar hissi ilə qeyd edən Azərbaycan vətəndaşları vətənpərvərlik hisslərini, milli dövlətimizin şərəfini uca tutduqlarını, ata və babalarımızın istiqlal amallarına sadiq olduqlarını nümayiş etdirirlər. İnamla deyə bilərik ki, bu gün təkcə Azərbaycan xalqının deyil, həm də bütün türk, islam və Şərq dünyasının tarixinə qızıl hərflərlə yazılmışdır. Cəmi 23 ay yaşamasına baxmayaraq, Azərbaycan Xalq Cümhuriyyəti süquta uğradıqdan sonra da digər Şərq xalqları və millətləri üçün əsl nümunə, örnək oldu".

D.İbramxəlilov Azərbaycan Xalq Cumhuriyyətinin varisi olan müasir müstəqil Azərbaycan dövlətinin yaranmasında, möhkəmlənməsində və dünyada tanınmasında Ulu Öndər Heydər Əliyevin misilsiz tarixi xidmətləri olduğunu vurğulayıb.

Rayon təşkilatının sədri bildirib ki, bu gün Ümummilli Lider Heydər Əliyevin dövlətçilik ideyalarını mükəmməl surətdə həyata keçirən, Ulu Öndərin yaratdıqlarını daha da inkişaf etdirən Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin yorulmaz fəaliyyəti, məqsədyönlü, düşünülmüş və praqmatik siyasəti nəticəsində dövlət müstəqilliyimiz gündən-günə möhkəmlənir, Azərbaycan getdikcə daha da güclənir, artıq regionun liderinə çevrilmişdir. Tədbirdə çıxış edən Qusar rayon icra hakimiyyətinin başçısının müavini Zoya Eldarova Ümummilli Lider Heydər Əliyev ideyalarının Azərbaycan Prezidenti Cənab İlham Əliyev tərəfindən uğurla həyata keçirildiyini və ölkəmizin dinamik inkişaf etdiyini vurğulayıb.

Tədbirdə çıxış edən Rail Kazımov, Aytən Səlimova, şəhər 1 saylı tam orta məktəbin XI sinif şagirdi "Heydər Əliyev və müstəqil Azərbaycan" mövzusunda Respublika İnşa Müsabiqəsində 3-cü yer tutmuş Murad Salmanov və başqaları vurğulayıblar ki, xoşbəxt o xalqdır ki, onun Ümummilli Lideri var. Bu gün Ulu Öndər Heydər Əliyevin siyasi kursu Azərbaycan Prezidenti Cənab İlham Əliyev tərəfindən əzmlə davam etdirilir.

***NƏZAKƏT***

# Ermənistanın partiya üzvləri arasında növbəti qalmaqal

Ermənistan hökuməti keçmiş partiya üzvləri arasında başlayan yeni qalmaqal ərəfəsindədir. SİA-nın "Johovurd" qəzetinə istinadən verdiyi xəbərə görə, Vardan Oskanyan və "Çiçəklənən Ermənistan" partiyasının keçmiş üzvləri son zamanlar aktiv şəkildə digər tərk edənləri öz tərəflərinə çəkməklə, yeni-"Birlik" adlı siyasi təşkilat yaratmağa çalışırlar. Bununla, Oskanyan "köhnələr"in təməli üzərində yeni partiya yaratmağı hədəfləyib. Onun ətrafında toplaşanların əksəriyyəti isə, Robert Köçəryanın hakimiyyəti illərində vəzifə başında olanlardır. Oskanyanın bu mövqeyi "Çiçəklənən Ermənistan" Partiyasının sədri Nair Zoqrabyan tərəfindən qəzəblə qarşılanıb. O, keçmiş "partiya yoldaşları"na bu işi davam etdirməyə gərək olmadığını bildirib. Əks halda nəticələrinin ağır olacağı ilə bağlı xəbərdarlıq edib.

# Respublikanın şimal bölgəsindəki taxılyığan kombaynlar aran rayonlarında biçinə cəlb olunub

"Aqrolizinq" Açıq Səhmdar Cəmiyyətinin (ASC) Xaçmaz regional nümayəndəliyinin balansındakı 50 taxılyığan kombayn aran bölgəsində biçinə cəlb olunub. AZƏRTAC xəbər verir ki, texniki baxışdan keçirilərək tam işlək vəziyyətə gətirilən taxılyığan kombaynların bir hissəsi artıq aran bölgəsinə göndərilib. Şimal bölgəsindən göndərilən kombaynlar Kürdəmir, Sabirabad, Hacıqabul, Salyan, Neftçala və İmişli rayonlarında taxıl biçinini həyata keçirəcək. "Aqrolizinq" ASC-nin Xaçmaz regional nümayəndəliyinin direktoru Rafiq Tağıyev bildirib ki, şimal bölgəsində taxıl biçini iyun ayının ikinci ongünlüyündə başlayır. Bu səbəbdən Kənd Təsərrüfatı Nazirliyinin tapşırığına əsasən, buradakı kombaynlar taxıl biçini başlayan rayonlara köməyə göndərilir. Aran rayonlarında biçin prosesi itkisiz və vaxtında başa çatdırıldıqdan sonra kombaynlar geri qayıdacaq. R.Tağıyev qeyd edib ki, şimal bölgəsindən olan sahibkarlar da artıq "Aqrolizinq" ASC-nin Xaçmaz regional nümayəndəliyinə müraciət edərək, taxıl zəmilərinin biçilməsi üçün müqavilə bağlaya bilərlər.

# Kinematoqrafçılar İttifaqı müsabiqə ELAN EDİR

Azərbaycan Respublikası Kinematoqrafçılar İttifaqı "YENİ NƏFƏS-II" adlı qısametrajlı ssenari müsabiqəsi elan edir.

**Məqsəd:**

Müsabiqə kinematoqrafiya sahəsində gənclərin yaradıcılıq fəaliyyətini inkişaf etdirmək, gənc və istedadlı müəllifləri aşkara çıxarmaq, həmçinin milli kinomuza yeni fikir, yeni nəfəs gətirmək məqsədi ilə keçirilir.

Müsabiqə həm də digər sahələrdə çalışan gənclərə, kinoda özlərini sınamaq imkanı yaratmaq və bununla da, mövcud rəqabəti gücləndirmək mövqeyi tutur.

**Şərtlər:**

· Yaşı 35-ə qədər olan bütün şəxslər müsabiqəyə ssenarisini təqdim edə bilər.

· Müsabiqəyə istənilən janrda, bədii, sənədli və animasiya ssenariləri qəbul olunur.

· Müsabiqəyə təqdim olunan ssenarinin hüquqları müəllifə məxsus olmalı, satılmamalı və çəkiliş dövründə olmamalıdır.

· Ssenari orijinal, yəni ekranlaşdırılmamış olmalıdır.

· Qısametrajlı film üçün nəzərdə tutulmuş ssenarilər müsabiqəyə 20 səhifədən çox olmamaq şərti ilə, üç nüsxədə, çap olunmuş və CD diskdə rəqəmsal daşıyıcıda təqdim olunmalıdır.

· Şrift Courier New, ölçü 12 tələb olunur.

· Çap olunmuş ssenarilərdə müəllifin ad və soyadı qeyd olunmamalıdır.

· Müəllif ssenari ilə birgə tərcümeyi-halını da təqdim etməlidir.

· Hər bir müəllif 3 (üç) ssenaridən artıq təqdim edə bilməz.

· Müsabiqəyə təqdim olunan ssenarilər geri qaytarılmır.

· Ssenarilər 31 iyul 2016-cı il tarixinə kimi Azərbaycan Respublikası Kinematoqrafçılar İttifaqının ünvanına göndərilməlidir.

· Ünvan: Azərbaycan Respublikası Kinematoqrafçılar İttifaqı, Bakı şəh. Səməd Vurğun küç.43/ World Business Center 16-cı mərtəbə

**Qaydalar:**

Müsabiqənin peşəkar münsiflər heyətini Azərbaycan Respublikası Kinematoqrafçılar İttifaqı təyin edir. Münsiflər heyəti məxfi seçim nəticəsində dörd ssenarini qiymətləndirəcək. Qalib ssenarilər pul mükafatı və diplomla təltif olunacaq:


Azərbaycan Respublikası Kinematoqrafçılar İttifaqı

**"YENI NƏFƏS-II"**

adlı qısametrajli ssenari müsabiqəsi elan edir.

***Məqsəd:***

Müsabiqə kinematoqrafiya sahəsində gənclərin yaradıcılıq fəaliyyətini inkişaf etdirmək, gənc və istedadlı müəllifləri aşkara çıxarmaq, həmçinin milli kinomuza yeni fikir, yeni nəfəs gətirmək məqsədi ilə keçirilir.

Müsabiqədə həm də digər sahələrdə çalışan gənclərə, kinoda özlərini sınamaq imkanı yaratmaq və bununla da mövcud rəqabəti gücləndirmək mövqeyi tutur.

***Şərtlər:***

•Yaşı 35-ə qədər olan bütün şəxslər müsabiqəyə ssenarisini təqdim edə bilər.
•Müsabiqəyə istənilən janrda, bədii, sənədli və animasiya ssenariləri qəbul olunur.
•Müsabiqəyə təqdim olunan ssenarinin hüquqları müəllifə məxsus olmalı, satılmamalı və çəkiliş dövründə olmamalıdır.
•Ssenari orijinal, yəni ekranlaşdırılmamış olmalıdır.
•Qısametrajlı film üçün nəzərdə tutulmuş ssenarilər müsabiqəyə 20 səhifədən çox olmamaq şərti ilə, üç nüsxədə, çap olunmuş və CD diskdə rəqəmsal daşıyıcıda təqdim olunmalıdır.
•Şrift Courier New, ölçü 12 tələb olunur.
•Çap olunmuş ssenarilərdə müəllifin ad və soyadı qeyd olunmamalıdır.
•Müəllif ssenari ilə birgə tərcümeyi-halını da təqdim etməlidir.
•Hər bir müəllif 3 (üç) ssenaridən artıq təqdim edə bilməz.
•Müsabiqəyə təqdim olunan ssenarilər geri qaytarılmır.
•Ssenarilər 31iyul 2016-cı il tarixinə kimi Azərbaycan Respublikası Kinematoqrafçılar İttifaqının ünvanına göndərilməlidir.
•Ünvan: Azərbaycan Respublikası Kinematoqrafçılar İttifaqı, Bakı şəh.Səməd Vurğun küç.43/ World Business Center 16-cı mərtəbə

***Qaydalar:***

Müsabiqənin peşəkar münsiflər heyətini Azərbaycan Respublikası Kinematoqrafçılar İttifaqı təyin edir.Münsiflər heyəti məxfi seçim nəticəsində dörd ssenarini qiymətləndirəcək. Qalib ssenarilər pul mükafatı və diplomla təltif olunacaq:

**•Qran Pri – 3000 manat** (Ekranlaşdırılması nəzərdə tutulub)
**•I yer 2000 manat**
**•II yer 1500 manat**
**•III yer 1000 manat**

Müsabiqənin nəticələri 2016-cı ilin sentyabr ayında açıqlanacaq.

Əlaqə üçün:Tel: +99412 597-48-04
Fax: +99412 597-48-03
Mob:+99451 427-41-03
arki.2012@mail.ru

İnformasiya dəstəyi:

AZƏRTAC TREND Day.Az SƏS QƏZETİ Mədəniyyət KASPI

· Qran Pri - 3000 manat (Ekranlaşdırılması nəzərdə tutulub)

· I yer 2000 manat

· II yer 1500 manat

· III yer 1000 manat

Müsabiqənin nəticələri 2016-cı ilin sentyabr ayında açıqlanacaq.

***Əlaqə üçün: Tel: +99412 597-48-04***
***Fax: +99412 597-48-03***
***Mob: +99451 427-41-03***
***arki.2012@mail.ru***

İnformasiya dəstəyi:

"AZƏRTAC", "Trend", "Day.az", "Səs", "Mədəniyyət", "Kaspi" qəzetləri

# YAP İsmayıllı rayon təşkilatı AXC-nin yaranma gününü qeyd etdi

***YAP İsmayıllı rayon təşkilatının təşkilatçılığı ilə İsmayıllı şəhər 5 saylı tam orta məktəbin və rayon "Bilik Evi"nin birgə iştirakı ilə Azərbaycan Xalq Cümhuriyyətinin yaranmasının 98-ci ildönümünə həsr olunmuş tədbir keçirilib.***






Tədbirdə çıxış edən YAP İsmayıllı rayon təşkilatının sədri Əzizə Vahabova, məktəbin direktoru Elçin Məmmədov Şərqdə ilk demokratik dövlət quruluşunu yaratmış Azərbaycan Xalq Cümhuriyyətinin yaranmasından, müstəqil dövlətimizin əsaslarından bəhs etdilər. Cəmi 23 ay fəaliyyət göstərməsinə baxmayaraq, ilk respublika dövründə həyata keçirilən tədbirlər, qəbul olunmuş qərarlar mühüm əhəmiyyət kəsb edib.

Tədbirdə çıxış edənlər bildiriblər ki, cümhuriyyətin tarixi təcrübəsi göstərir ki, dövlət müstəqilliyini və suverenliyi əldə etmək kifayət deyil, həm də onu bütün vasitələrlə qorumaq və möhkəmləndirmək lazımdır. Xalqımız yeni tarixi şəraitdə öz dövlət müstəqilliyini bərpa etdikdən sonra xalqın təkidi ilə hakimiyyətə gələn Ümummilli Lider Heydər Əliyev müstəqil Azərbaycan dövlətini yaratdı. Heydər Əliyev ölkəmizin ümumi inkişaf strategiyasını müəyyən etdi. Bu gün Möhtərəm Prezident Cənab İlham Əliyevin rəhbərliyi altında Azərbaycan Respublikasında demokratik, hüquqi, dünyəvi dövlət, vətəndaş cəmiyyəti quruculuğu prosesinin uğurla davam etdirir.

Rayon təhsil şöbəsinin məsləhətçisi, tarix müəllimi Ramiz Baloğlanov, məktəbin direktor müavini Elvüsal Babayev, gənclərdən Yeganə Dadaşzadə, Günay Bədəlova Teymur Məlikzadə və başqaları çıxış edərək, bildiriblər ki, Azərbaycan Xalq Cümhuriyyəti, xüsusən təhsilin, mədəniyyətin, ədəbiyyat və incəsənətin inkişafı sahəsində fəaliyyəti ilə yadda qalmışdır.

***ZÜMRÜD***



## "Multikultural dəyərlərin təbliğində gənclərin rolu"

### *YAP Zaqatala rayon təşkilatında bu mövzuda dəyirmi masa keçirilib*

***YAP Zaqatala rayon təşkilatının təşkilatçılığı ilə Heydər Əliyev Mərkəzində "Multikultural dəyərlərin təbliğində gənclərin rolu" mövzusunda dəyirmi masa keçirilib. Dəyirmi masada YAP Zaqatala rayon təşkilatının sədri Habil Qurbanov, rayon gənclər birliyinin sədri Ramin Həsənov və ərazi ilk partiya təşkilatlarını təmsil edən gənclər iştirak ediblər.***

Giriş sözü ilə dəyirmi masanı açan rayon təşkilatının sədri H.Qurbanov multikulturalizm haqqında ətraflı məlumat verib. Qeyd edib ki, multikulturalizm ölkəmizdə yaşam formasına çevrilmişdir. Bu gün ölkəmizdə onlarla xalq mehribanlıq və əmin-amanlıqla yaşayır və öz mədəniyyətlərini qoruyub-saxlayır və inkişaf etdirirlər.

Daha sonra tədbirdə rayon təşkilatının gənclər birliyinin sədri Ramin Həsənov, tarix müəllimi İranə Əlizadənin, Zərifə Əliyeva adına liseyin tarix müəllimləri Aytən Məmmədova və Vüqar İsrafilov mövzu ətrafında çıxışlar ediblər.

***Ü.ƏSGƏROV***

## Dövlət Neft Fondu banklara 50 milyon dollar satıb



Mayın 26-da Azərbaycan Respublikası Dövlət Neft Fondu (ARDNF) tərəfindən 50 milyon ABŞ dolları məbləğində vəsait hərraca çıxarılıb, bu vəsaitdən 20 milyon dolları 11 banka, 30 milyon dolları isə Azərbaycan Respublikası Mərkəzi Bankına satılıb. Dövlət Neft Fondunun ictimaiyyətlə əlaqələr şöbəsindən AZƏRTAC-a bildirilib ki, il ərzində ARDNF tərəfindən hərraclar vasitəsilə valyuta satışı davam etdiriləcək.

# YAP Quba rayon təşkilatında şura iclası keçirilib

***YAP Quba rayon təşkilatında şura iclası keçirilib. İclasda bir sıra məsələlər, o cümlədən YAP Quba rayon təşkilatının üzvlərinin sayının həm keyfiyyət, həm kəmiyyət baxımdan artırılması, bir sıra idarə və müəssisələrdə ilk partiya təşkilatlarının yaradılması və sair məsələlər müzakirə olunub.***





Tədbiri giriş sözü ilə açan YAP Quba rayon təşkilatının sədri Yusif Abidov Yeni Azərbaycan Partiyasının zaman baxımından elə də çox olmayan tarixi dövründə şərəfli yol keçərək, Azərbaycanın ictimai-siyasi həyatında aparıcı qüvvəyə çevrildiyini bildirib:"YAP-ın gücü ondadır ki, bu partiyaya Ümummilli Lider Heydər Əliyev ideyalarının layiqli davamçısı, Azərbaycanı lider dövlətə çevirmək uğrunda yorulmaz fəaliyyət göstərən Cənab İlham Əliyev rəhbərlik edir. Əsası Ümummilli Liderimiz Heydər Əliyev tərəfindən qoyulmuş inkişaf strategiyası ölkə başçısı Cənab İlham Əliyev tərəfindən uğurla davam etdirilir. Ölkədə əsaslı islahatlar, genişmiqyaslı fundamental layihələr, uğurlu daxili və xarici siyasət həyata keçirilir. Regionlar inkişaf etdikcə, yerlərdə iqtisadi fəallıq və siyasi düşüncə durmadan artır. Əbədi müstəqilliyimizin təminatı üçün yaradılmış iqtisadi və sosial dayaqlar daha da möhkəmləndirilir. Ümummilli Lider Heydər Əliyevin banisi olduğu müasir Azərbaycan dövləti Cənab İlham Əliyevin rəhbərliyi altında inkişaf dövrünü yaşayır".

O, qeyd etdi ki, YAP Quba rayon təşkilatı yarandığı və fəaliyyətdə olduğu illər ərzində təşkilat böyük inkişaf yolu keçərək, öz sıralarını Heydər Əliyev siyasətinə sədaqətli, mübariz üzvlər hesabına genişləndirib. Y.Abidov bildirdi ki, X konfransdan ötən müddət ərzində, yəni 29 aprel 2016-cı ildən bu günə qədər partiya sıralarına 566 nəfər yeni üzv qəbul olunub. Bundan sonra da bu proses mütəmadi davam etdiriləcək və boy sıralarının artırılması istiqamətində rayon təşkilatı işini daha da gücləndirəcəkdir.

Tədbirdə Milli Məclisin üzvü Yevda Abramov, Quba rayon icra hakimiyyətinin başçısı Yaşar Məmmədov və başqaları çıxış edərək, qeyd ediblər ki, ölkəmizdə həyata keçirilən dinamik inkişafın, yeniləşmənin, tərəqqinin əsasında Ulu Öndər Heydər Əliyevin dövlətçilik ideyaları durur. Həyata keçirilən tədbirlər, bütün sahələrdə qazanılan uğurlar Möhtərəm Prezident, Yeni Azərbaycan Partiyasının Sədri Cənab İlham Əliyevin apardığı uğurlu və məqsədyönlü siyasətə əsaslanır.

***NƏZAKƏT***

# "Azərbaycan Cümhuriyyəti. 1918-1920" bölməsinin açılışı olub

***Mayın 26-da AMEA Milli Azərbaycan Tarixi Muzeyinin daimi ekspozisiyasında "Azərbaycan Cümhuriyyəti.1918-1920" bölməsinin yeni quruluşda açılışı olub.***

Açılış mərasimində muzeyin direktoru, akademik Nailə Vəlixanlı bölmə barədə ətraflı məlumat verib. Bildirib ki, bölmədə müsəlman Şərqində ilk demokratik respublikanı daha dolğun və ətraflı nümayiş etdirmək üçün əsaslı dəyişikliklər edilib.

Tədbirdə AMEA-nın vitse-prezidenti, akademik İsa Həbibbəyli XX əsrin əvvəllərində azadlıq və demokratiya kimi ümumbəşəri anlayışların beynəlxalq aləmdə hələ yeni-yeni təşəkkül tapmağa başladığı vaxtda Azərbaycanda artıq demokratik respublikanın qurulmasını yüksək qiymətləndirib, xalqımızın müstəqil dövlətçiliyini yenidən bərpa etməsinin və keçdiyi inkişaf yolunun təqdirəlayiq olduğunu bildirib. O, 1918-1920-ci illərdə baş verən hadisələrin gələcək nəsillərə çatdırılmasının vacibliyini vurğulayıb.



İ.Həbibbəyli Milli Azərbaycan Tarixi Muzeyinin daimi ekspozisiyasında "Azərbaycan Cümhuriyyəti.1918-1920" bölməsinin yeni tərtibatda açılmasını yüksək dəyərləndirib.

Tarix elmləri doktoru Solmaz Rüstəmova-Tohidi öz çıxışında 98 il bundan əvvəl müsəlman Şərqində ilk demokratik respublika olan Azərbaycan Xalq Cümhuriyyətinin tarixindən bəhs edib, qısa, lakin şərəfli yol keçmiş bu müstəqil dövlətin xalqımızın yaddaşında silinməz iz qoyduğunu bildirib. O, Respublika Günü ərəfəsində ekspozisiyanın açılışını təqdirəlayiq hal kimi qiymətləndirib. Daha sonra qonaqlar yeni qurulmuş ekspozisiya ilə tanış olublar. Bölmə "Azərbaycan Cümhuriyyətinin yaranması. Qafqaz İslam Ordusu" və "Azərbaycan Cümhuriyyətinin fəaliyyəti" adlı iki otaqdan ibarətdir.

Birinci otaqda müstəqilliyin elan edilməsi, Qafqaz İslam Ordusunun yaranması və fəaliyyəti, Azərbaycan Cümhuriyyəti hökumətinin Gəncə dövründə fəaliyyəti əks olunub. İkinci otaqda isə Azərbaycan Cümhuriyyəti Parlament və hökumətinin fəaliyyəti, 1918-1920-ci illərin əvvəlində ölkə iqtisadiyyatı, mədəniyyəti, təhsilin inkişafı, ordu quruculuğu, xarici və daxili siyasət kimi məsələlər əksini tapıb.

***N.ƏLƏDDİNQIZI***

səs

www.sesqazeti.az

facebook Ses Media Holding

27 may 2016-cı il

# Arif Hacılı Müsavata başucalığı gətirmədi

*Müsavatçı xanımdan saxta başqana sərt ittihamlar*



**Müsavat partiyasında baş verən ardıcıl qopmalar, istefa və qovulmalar artıq ictimai rəy üçün ənənəvi təsir bağışlamaqdadır. Belə ki, sabiq başqan İ.Qəmbərin xeyir-duası və dəstəyi ilə saxta yolla başqan seçilmiş A.Hacılının ətrafının sürətlə boşalması müxalifət arenasında bir neçə yeni siyasi qurumların yaranmasına səbəb olmağa başladı. Yaradılan bloklar, birliklər və partiyalar müxalifətçilik mövqeyindən çıxış etmələrinə baxmayaraq, köhnə müxalifətçilik stereotiplərini kənara ataraq, sivil müxalifətçilik yolunu tutmağı daha məqbul hesab etdilər. Daha dəqiq desəm, radikalizmin siyasi üstünlük əldə etməsi üçün çıxış yolu olmadığını dərk edənlər indi bu ənənədən kənarda qalaraq fəaliyyət göstərməyi üstün tutdular.**

## Əbəs yerə deyil ki, Abbaslı partiyadan çıxar-çıxmaz onu xeyli tərəfdarı dəstəklədi

Belə təşkilatlardan biri də A.Hacılının baqşanlığını qəbul etməyərək, partiyadan uzaqlaşan və ilk öncə "Ağ Blok" siyasi klubunu yaradan, ardınca isə "Vahid Azərbaycan Partiyası"nı ("VAP") təsis etdiyini bəyan edən Tural Abbaslıdır. Qısa xatırlatma edərək, onu da qeyd edək ki, T.Abbaslı uzun illər Müsavatın gənclər təşkilatına rəhbərlik edib, İ.Qəmbərin başqanlığı dövründə ətrafına tərəfdarlar toplamağı bacarıb. Əbəs yerə deyil ki, T.Abbaslı partiyadan çıxar-çıxmaz onu xeyli tərəfdarı dəstəklədi. Məhz bu dəstəyin sayəsində Müsavat sıralarından istefa verən tərəflər sonradan "Ağ Blok"da, ardınca isə "VAP"da cəmləşməyə başlayıblar.

## Başxanım Abbaslı: "Rəhbərlik tərəfindən sayğı və qayğı görmədilər deyə partiyadan ayrıldılar"

Ortada daha bir maraqlı məqam Tural Abbaslının və qardaşının sözügedən istiqamətdəki fəaliyyətlərinin anaları - uzun illər Müsavat sıralarında təmsil edilən Başxanım Abbaslı tərəfindən təşfiq edilməsidir. Maraqlı məqam isə budur ki, Müsavat funksioneri kimi qalan B.Abbaslı övladlarının atdığı addımlarını təqdir etdiyini gizlətmir. Üstəlik, T.Abbaslının və digər oğlunun seçimlərinə uğur diləməklə yanaşı, onların bu addıma getmələrində məcbur edildiklərini bildirir. Yəni müsavatçı xanım belə bir vəziyyətin yaranmasının əsas baiskarı kimi, məhz başqan A.Hacılını göstərir.

SİTAT: "Yeni hərəkatın və təzə simaların olması gözəl əlamətdir. Gənclərin özlərinə yeni yol açmasını yaxşı qarşılayıram, Allah onlara uğurlu yol qismət eləsin. Mənim yetərincə yaşım var, Müsavat bərpa qurultayının üzvü olmuşam, hərəkatdan gəlmiş adamam. Sadəcə olaraq, rəhbərlikdən incidilər. Rəhbərlik tərəfindən sayğı və qayğı görmədilər deyə partiyadan ayrıldılar, yoxsa onlar da Müsavatdan uzaqlaşmazdılar. Mən həmişə bu partiyaya sadiq olmuşam, bundan sonra da sadiq olaraq qalacağam. Müsavat partiyasında qalmağı üstün tuturam".

## "Arif Hacılı dedi ki, qucağımı açmışam, amma heç kimi qucaqlamadı"

İlk baxışdan görünən amillərdən biri də budur ki, B.Abbaslı, əslində iki od arasında qaldığını gizlədə bilmir. Bir tərəfdə Müsavat rəhbərliyindən narazı olan və partiya yaradan övladları, digər tərəfdən isə öz illərini sərf etdiyi partiya. Eyni zamanda, partiyanın rəhbərliyindən narazılıq.

Bu baxımdan, A.Hacılı ilə T.Abbaslı arasındakı düşmənçilik meyillərinə münasibətini bildirən B.Abbaslı deyib ki, onun özü də divanın üzvüdür və xeyli insanın Müsavatdan istefa verməsi ürəyincə deyildi: "Tək mən yox, bir çoxları istədi ki, Müsavatda birlik olsun, qopmaların qarşısı alınsın. A.Hacılı həmişə söyləyir ki, mən qucağımı açdım, hamıya dedim gəlin qucaqlaşaq, barışaq. Düzdür, A.Hacılı dedi ki, qucağımı açmışam, amma heç kimi qucaqlamadı. Qubad İbadoğlunun, Hikmət Hacızadənin, Vurğun Əyyubun və digər müsavatçıların partiyamızdan gedişi bizə başucalığı gətirmədi, hərəkatda yerini tutmuş adamlar idi, onlar birdən-birə partiyadan getməməli idilər. Bizlər onların partiyadan uzaqlaşmasının qarşısını almalı idik. Amma təəssüf ki, mümkün olmadı."

## Tural Abbaslının "VAP"ı Arif Hacılının Müsavatını siyasi arenadan silməyə yönəlmiş plandır

Beləliklə, bu məsələdə T.Abbaslının anasının yekun nəticə olaraq A.Hacılının deyil, məhz öz oğlunun atdığı addımlarına dəstək göstərdiyini görmək olar. Hətta belə demək mümkündür ki, o, divan üzvü olduğunu, Müsavat partiyasına sadiq qalacağını desə də, yaxın vaxtlarda "VAP"-a transfer ola bilər. Çünki vaxtilə T.Abbaslının özü də müsavatçılıq ideologiyasına sadiq qalacağını deyirdi. Lakin indi onun tamamilə başqa siyasi istiqamətdə siyasi fəaliyyət göstərdiyini nəzərə almaqla deyə bilərik ki, təsis etdiyi "VAP", əslində Müsavatı siyasi arenadan silməyə yönəlmiş plandır. A.Hacılını isə qarşıda çətin günlər gözləyir.

*Rövşən RƏSULOV*

# Keçmiş cəbhəçi partiya sədrlərini ittiham etdi

*"İsa Qəmbər və Əli Kərimli, kimsə sizə inanmır, müxalifətçilərin inamını sarsıtmısınız"*

**Keçmiş cəbhəçi Ramiz Mirzəoğlu Müsavatın sabiq başqanı İ.Qəmbəri, hazırkı başqan A.Hacılını, XP sədri Pənah Hüseyni və AXCP sədri Ə.Kərimlini sərt şəkildə tənqid edib. Adıçəkilən şəxsləri riyakarlıqda ittiham edən R.Mirzəoğlu bildirib ki, bu adamlar bütün çətin anlarda yaxalarını kənara çəkirlər: "Mən də müsavatçı olmuşam, ancaq bu partiyada baş verən özbaşınalıqlara, diktaturaya etiraz edib, oranı tərk etmişəm. Ancaq bu gün Müsavatın göbəyində oturub ağzına su alanları başa düşə bilmirəm, bir-birilərini qırmaqla məşğuldurlar. Müsavatın sabiq üzvü İlham İsmayılın Elçibəy haqqında söylədiyi fikirlərə kimsə münasibət bildirmək istəmir. İ.Qəmbər, P.Hüseyn, Ə.Kərimli və A.Hacılı! Bu məsələyə cavab vermək, fikir bildirmək sizin mənəvi borcunuzdur. Nə vaxta qədər qaçacaqsınız. Artıq kimsə sizlərə inanmır, hər kəsin inamını sarsıtmısınız".**

Keçmiş cəbhəçi Ülvi Həkimoğlu da adıçəkilən şəxsləri, xüsusilə də Ə.Kərimlini əqidəsizlikdə suçlayıb: "Ə.Kərimli Elçibəyin çörəyini yeyib, onun hesabına adam olub. Ancaq indi bircə dəfə də olsun Elçibəyin ailəsi ilə maraqlanmır. Bu da bir tərəfə qalsın, niyə Elçibəy haqqında deyilənlərə cavab vermir? Məqsədi nədir? Bəlkə özü sifarişlə edir bu yazılanları?".

Hər iki şəxsin ittihamlarına cavab olaraq Ə.Kərimli onlara qarşı təhqirlərlə cavab verib. Belə ki, həm R.Mirzəoğlu, həm də Ü.Həkimoğlunun telefonlarına tanımadıqları nömrələrdən zənglər gəlib, hər iki şəxs təhqir olunub. Onlara hədə-qorxu gəliblər ki, heç yerdə Ə.Kərimlinin adını çəkməsin. Bundan sonra məsələyə AXCP sədrinin müavini Nurəddin Məmmədli münasibət bildirmək məcburiyyətində qalıb. O, qeyd edib ki, R.Mirzəoğlunun kimisə müdafiə etməsinə ehitac yoxdur: "Ramiz əvvəl AXCP-nin üzvü idi, 1992-ci ildə vəzifə də daşıyırdı. Daha sonra AXCP-dən qovulub Müsavata gəldi. Sonra Müsavatdan da çıxdı. İndi qalıb ortada. Yəqin hara gedəcəyini bilmədiyinə görə, bizlərə ittihamlar irəli sürür. Biz heç kimin müdafiə komitəsi funksiyasını yerinə yetirmirik".

Göründüyü kimi, siyasi fəaliyyətdən daha çox, şəxsi intriqalar üzərində "işlərini" quranlar, xüsusilə, AXCP və Müsavat partiyası üçün dava-dalaş daha önəmlidir. Müxalifət düşərgəsindəki acınacaqlı vəziyyətə görə məsuliyyət daşıyan "liderlər" də üzlərini gizlətməklə məşğuldurlar. Nemət Pənahlının, Rəhim Qazıyevin son günlərdə səsləndirdikləri bəyanatlar, bir daha sübut edir ki, yaxın günlərdə vəziyyət daha da gərginləşəcək. Bunu İ.Qəmbər də, Ə.Kərimli də gözəl başa düşür. Bəs nə üçün lider dedikləri şəxsin-Elçibəyin tənqid, hətta təhqir olunmasına seyrçi qalırlar?

Son günlər AXCP və Müsavatın Elçibəylə bağlı məsələlərdə həssaslıq nümayiş etdirməməsini şərh edən siyasi şərhçi Vüqar Əsgərov "SƏS" qəzetinə açıqlamasında bildirib ki, Elçibəyin vəfatından ən çox sevinən Ə.Kərimli oldu: "Əgər yadınızdadırsa, Elçibəyin cənazəsi torpağa tapşırılmamış Ə.Kərimli gizli şəkildə toplantı keçirərək, "sədr" olacağını bəlli etdi. Bir çoxlarını müxtəlif vədlərlə ələ aldı ki, ona "AXCP sədri" olmaqda mane olmasınlar. Sonrakı hadisələr də göstərdi ki, hətta Elçibəyin adının əbədiləşdirilməsində maraqlı olmayan əsas adam, məhz elə odur. Elçibəy həmişə Ə.Kərimli haqqında deyirdi ki, onun bir əlindən mən tutmuşam, o biri əlini tapa bilmirəm. Ona daha çox şəxsi ambisiyaları maraqlıdır. Hətta mən eşitdiyimə görə, o, başının üzərindən Elçibəyin portretini də götürüb. Onda imitasiya o həddə çatıb ki, özündən başqa kimsəni "lider" kimi qəbul eləmir. Xədicə İsmayıl azadlığa çıxanda, Ə.Kərimli də orda olub və jurnalsitlərdən biri ona Elçibəylə bağlı suallar ünvanlayıb. Səhv etmirəmsə, "Yeni Müsavat"ın müxbiri olub. O, cavab verməyib, gülümsəyib".

*Samir*

# Qızıl bahalaşıb



Dünya bazarında qızıl bahalaşıb. SİA-nın xəbərinə görə, COMEX-də sonuncu hərraclarda qızılın unsiyası 6,00 dollar bahalaşaraq 1 229,80 dollara, gümüş isə 0,18dollar artaraq 16,45 dollara satılıb. Amerika və Avropa fond indekslərinin də qiymətində bahalaşmaq qeydə alınıb. Belə ki, Amerika bazarında Dow Jones indeksi 0,82% - 17 851,51 bəndədək, S&P 500 0,70% - 2 090,54 bəndədək, NASDAQ 0,70% - 4 894,89 bəndədək artıb. Avropa fond bazarlarında FTSE 100 indeksi 0,70% - 6 262,85 bəndədək, Almaniya DAX-ı 1,47% - 10 205,21 bəndədək, Fransa CAC-40-ı 1,13% - 4 481,64 bəndədək bahalaşıb.

# Ev qiymətinə avtomobil nömrəsi satılır




Görmüşük ki, avtomobil nömrəsi 1000, 2000, ən çox 10 000 manata satılar. Ancaq saytların birində avtomobilin nömrəsi maşının özündən baha 90 min manata satışa çıxarılıb. Aidiyyəti qurumlar isə deyir ki, avtomobil qeydiyyat nişanın şəxs tərəfindən satılması qanunsuzdur. Ev qiymətinə avtomobil nömrəsi satılır. Vətəndaşlardan biri nə az, nə çox düz 90 min manata avtomobilin dövlət qeydiyyat nişanını saytların birində satışa çıxarıb. Avtomobildən baha olan və satışa çıxarılan nömrə isə 10 XX 100-dür. Məsələyə münasibət bildirən Bakı Şəhər Baş Polis İdarəsinin Dövlət Yol Polisi İdarəsinin sözçüsü Vaqif Əsədov deyir ki, avtomobil nömrəsi şəxs tərəfindən satıla bilməz. Vaqif Əsədov deyir ki, nömrənin dəyişdirilməsi və ya verilməsi aidiyyəti qurumlar tərəfindən həyata keçirilir və nömrəyə uyğun müvafiq rüsumlar var. Rüsumlar 500-2500 manat arasında dəyişir. Nömrə nişanı 001-dən 009-a kimi rəqəmlər ilə olduqda və müxtəlif hərflərdən ibarətdirsə qiyməti 1500, həmin rəqəmlər seriyası eyni hərflərdən ibarət olduqda 2500 manat rüsum ödənilir. Əgər nömrə nişanı 100-dən 900-a kimidirsə və müxtəlif hərflərdən ibarətdirsə bu zaman qiyməti 1000, eyni hərflərdisə 1500 manatdır. Bununla yanaşı, nömrə eynirəqəmli olduğu halda hərflər müxtəlif olarsa 500 manat, eyni hərflər olarsa 1000 manat dövlət rüsumu nəzərdə tutulur. Vaqif Əsədov saytlara yerləşdirilən belə elanları real saymır. Bu cür elan yerləşdirilməsinə baxmayaraq, bu satış həyata keçirilmir. Biz də 90 min manata avtombil nömrəsi satan şəxslə əlaqə saxlamağa cəhd etsək də zəngimiz uğursuz oldu. Vətəndaşlar bildirirlər ki, 90 min manata avtomobil nömrəsi almaq əhəmiyyətsizdir. Amma hər halda alıcısı olmasa bu qəbildən elanlar da olmazdı.

# Hüquqi dövlət quruculuğu, sosial rifah və insan haqları

***Azərbaycan Respublikasında bu gün hüquqi dövlət quruculuğu sahəsində və iqtisadiyyatda əldə edilmiş uğurlar əhalinin sosial rifahını yaxşılaşdırmışdır. Cəmiyyət bütün istiqamətlərdə dinamik tərəqqi edir. Elm və təhsilin inkişafına diqqət artırılmışdır. İnsanın maddi rifah halı köklü dəyişikliklərə məruz qalmış, hüquq və azadlıqların etibarlı qorunması sahəsində uğurlar əldə edilmişdir. Son illər müxtəlif istiqamətlərdə və müxtəlif mövzularda keçirilən beynəlxalq konfranslar ölkəmizə marağın artdığını sübut edir. Bütün bunlara baxmayaraq, ölkəmizdə həyata keçirilən hüquqi dövlət quruculuğu, qanunların təkmilləşdirilməsi, hüquq mədəniyyətinin yüksəldilməsi, hüquq maarifçiliyinin səmərəliliyinin artırılması, cəmiyyətdə sabitliyin və barışığın əldə edilməsi, bu məsələlərin daim diqqətdə saxlanılmasını tələb edir.***

Etiraf edək ki, tezliklə iyirmi illiyini qeyd etməyə hazırlaşdığımız Milli Konstitusiyamızın və ayrı-ayrı normativ-hüquqi aktların, məcəllələrin bir daha yenidən nəzərdən keçirilməsi və onların təkmilləşdirilməsi barədə müxtəlif tədqiqatçıların fikirlərinin müəyyən əsasları da vardır. Aydın məsələdir ki, konstitusiyamızda göstərilən din-dövlət, din-ailə münasibətlərinin, mülkiyyət və mülkiyyət hüququnun müdafiəsini təmin edən normaların, qadın və uşaq hüquqlarının, əqli mülkiyyət hüququnun, nikah hüququnun, əmək hüququnun, azad sahibkarlıq hüququnun, şərəf və ləyaqətin müdafiəsi hüququnun konstitusion tənzimlənməsinin təkmilləşdirilməsinə zərurət vardır. Korrupsiyaya qarşı mübarizənin hüquqi əsaslarının və mexanizmlərinin, dövlət idarəçiliyi sahəsində əmək münasibətlərinin, yerli idarəçilik orqanlarının fəaliyyətinin təkmilləşdirilməsi də olduqca vacibdir. Məhkəmə və hüquq-mühafizə orqanlarının fəaliyyətində qanunçuluğa əməl edilməsini tələb edən mexanizmlərin yaxşılaşdırılması və dünya təcrübəsinin nəzərə alınmasında böyük zərurət vardır. Bu gün ölkədə hüquqi təhsil sisteminin də təkmilləşdirilməsi vacibdir. Bütün bu məsələlərə kompleks yanaşmadan ölkədə hüquqi dövlət quruculuğunun uğurla başa çatdırılması mümkünsüz olacaqdır.

Ölkənin elmi potensialı belə islahatların ardıcıl və sistemli aparılmasına imkan verir. Hesab edirik ki, bu islahatların əsas istiqamətləri aşağıdakı məsələləri əhatə etməlidir:

1. Ölkədə konstitusiyanın və normativ-hüquqi aktların daimi olaraq tədqiq edilib öyrənilməsi və onun təkmilləşdirilməsi üçün qanunverici orqanın - Milli Məclisin nəzdində Dövlət və Hüquq İnstitutunun; yaxud Qanunvericilik İnstitutunun yaradılmasına zərurət vardır. Belə ki, ölkədə kifayət qədər ali təhsil və elmi-tədqiqat institutlarının olduğu bir şəraitdə, hüquqi dövlət quruculuğunun nəzəri və təcrübi problemlərinin həll edilməsi sahəsində elmi təminatların əsaslı surətdə yaxşılaşdırılması üçün belə bir elmi-tədqiqat institutunun yaradılması məsələsi nəzərdən keçirilməlidir.

2. Azərbaycan Respublikası Konstitusiyasının 148-ci maddəsinin 2-ci bəndinə müvafiq olaraq, ölkəmizin tərəfdaş çıxdığı beynəlxalq müqavilələrin qanunvericilik sistemimizin ayrılmaz tərkib hissəsi olduğu nəzərə alınaraq, həmin beynəlxalq müqavilələrin məcəllələləşdirilməsi və ya onların külliyatının rəsmi nəşri təmin edilməlidir.

3. Dövlət quruculuğunda eyni və ya oxşar məsələləri həll etmək funksiyası tapşırılmış qurumların birləşdirilməsi və ya yenidən təşkil edilməsi məsələsinə diqqət artırılmalıdır. Dünya təcrübəsi təsdiq edir ki, elm və təhsil biri-biri ilə sıx əlaqədə olmaqla, əslində tamın hissələridir, onların məqsədləri və vəzifələri kifayət qədər yaxınlaşmışdır və bir çox hallarda üst-üstə düşür. Belə vəziyyətdə tələbə qəbulu üzrə komissiyanın, dövlət qulluğuna qəbul üzrə komissiyanın, təhsil və elm sahəsində fəaliyyəti həyata keçirən çoxsaylı qurumların vahid bir mərkəzdə birləşdirilməsi məsələsinə baxılması zəruridir.

4. "Cinayətin qurbanı" haqqında Azərbaycan Respublikasının Qanununun qəbul edilməsinə zərurət vardır. Bu, insan hüquq və azadlıqlarının təmin edilməsi üçün mühüm əhəmiyyətə malikdir. Eləcə də ölkədə "Cinayətkarlığa və hüquq pozuntularına qarşı mübarizəni gücləndirmək tədbirləri haqqında" dövlət siyasətinin əsas istiqamətlərini müəyyən edən xüsusi doktrinanın hazırlanıb, həyata keçirilməsi təmin edilməlidir. Bundan başqa Azərbaycan Respbulikasının Cinayət-Prosessual Məcəlləsinin 7-ci maddəsində "cinayətin qurbanı"na anlayış verilməli, 87-1-ci maddəsində isə onun statusu, hüquqları və vəzifələri dəqiq müəyyən edilməlidir.

5. Cinayətkarlıqla və hüquq pozuntuları ilə mübarizəni səmərəli təşkil etmək üçün respublika, onun ayrı-ayrı regionları, rayonları və şəhərləri üzrə antikriminal Dövlət Proqramının hazırlanması və həyata keçirilməsi nəzərdən keçirilməlidir.

6. Cinayətkarlığın və məhkumluğun statistikası əsaslı surətdə təkmilləşdirilməli, mərkəzləşdirilməli, o cümlədən "cinayətin qurbanı" haqqında demoqrafik və digər zəruri məlumatlar, eyni zamanda, cinayət əməlləri nəticəsində vətəndaşlara, dövlətə və digər subyektlərə vurulan zərər, ziyan, itki və digər bu kimi anlayışların definisiyasının və meyarlarının müəyyən edilməsi üçün tədbirlər görülməlidir. Bu, cinayətkarlığın proqnozlaşdırılması üçün son dərəcə vacibdir.

7. Cinayətkarlığın qarşısının alınması və profilaktikası sahəsində hüquq-mühafizə orqanları tərəfindən həyata keçirilmiş tədbirlər sistemi ayrı-ayrılıqda statistik hesabatlarda müfəssəl olaraq öz ifadəsini tapmalı, nəticə etibarilə cinayətkarlığın və hüquq pozuntularının ölkəyə, ayrı-ayrı şəxslərə və digər subyektlərə yetirdiyi maddi zərərlərin ayrı-ayrılıqda və ümumi səviyyədə miqyası müəyyən edilməlidir. Bu məlumatlarda, eyni zamanda, hüquq-mühafizə orqanlarının fəaliyyətini təmin edən maddi vəsaitlərin əsas göstəricilərinin əks olunması həyata keçirilməlidir. Cinayətin törədilməsinə şərait yaradan halların müəyyən edilməsi və aradan qaldırılması haqqında istintaq və məhkəmə orqanlarının təqdimatlarını icra etməməyə və ya lazımi qaydada icra etməməyə görə məsuliyyət müəyyən edən xüsusi norma - 306-1-ci maddə Cinayət Məcəlləsinə əlavə edilməlidir.

8. "Cinayətlərin qarşısının alınmasında dövlət sisteminin əsasları barədə" Qanun qəbul edilməsi zəruridir. Bu zaman cinayətkarlığın vəziyyətinə dair regional xəritələrin və topoqrafiyaların hazırlanması da əhəmiyyətli olardı.

9. Polis orqanlarında yetkinlik yaşına çatmamışların işləri üzrə cinayətkarlığın profilaktikası və proqnozlaşdırılması sahəsində müstəqil analitik-nəzarət qurumları yaradılmalı və qanunvericilikdə müvafiq dəyişikliklər aparılmaqla bu istiqamətdə tədbirlər gücləndirilməlidir.

Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin Kriminologiya Problemləri Elmi-Tədqiqat İnstitutunun yaradılması məsələsi nəzərdən keçirilməlidir.

10. İstintaq və məhkəmə nəticələri barədə, cinayətkarlığın statistikası və dinamikası ilə yanaşı, təqsirləndirilən şəxslərin və məhkumların psixoloji vəziyyətləri bütün hallarda məhkəmə-psixoloji ekspertlər vasitəsilə müəyyən edilməli, bu barədə xüsusi psixoloji testlər hazırlanmalı və onun nəticələri istintaq zamanı, məhkəmədə və xüsusilə, cəzaçəkmə prosesində istifadə edilməlidir. Bu məlumatlardan cəzaçəkmə müəssisələrindən azadlığa buraxılan şəxslərlə profilaktiki tədbirləri həyata keçirən polis orqanlarının fəaliyyətində nəzərə alınmalıdır.

11. Hüquq-mühafizə orqanlarının cinayətkarlıqla mübarizə sahəsində fəaliyyətinin kordinasiya edilməsi, qanunların bütün ölkə üzrə eyni cür və dürüst icrasını təmin etmək funksiyası prokurorluq orqanlarının səlahiyyətinə aid edilməlidir. Prokurorluq orqanları icra hakimiyyətinə - ölkə prezidentinə tabe etdirilməli və məhkəmə hakimiyyətinin tərkibindən çıxarılmalıdır.

12. Azərbaycan Respublikasının Əmək Qanunları Məcəlləsində, "Dövlət qulluğu haqqında" Qanunda və digər müvafiq xidmətlərə dair normativ-hüquqi aktlarda müvafiq təkmilləşdirilmələr aparılmaqla, bir şəxsin yalnız bir vəzifədə (pedaqoji xidmət istisna edilməklə) işləməsini nəzərdə tutan norma təsbit edilməlidir. Bu, bir tərəfdən iş saatının təyinatı üzrə səmərəli istifadəsini təmin edəcək, digər tərəfdən isə ölkə Prezidentinin müvafiq Sərəncamı ilə təsdiq olunmuş yeni iş yerlərinin yaradılması haqqında dövlət siyasətinin real olaraq həyata keçirilməsini təmin etmiş olacaqdır.

13. Vətəndaşların böyük ictimai təhlükə təşkil etməyən və ya xüsusi ittihamlı işlər üzrə müraciətlərinin aidiyyəti dəyişdirilməli, bu barədə ərizələrə və şikayətlərə baxılması məhkəmə orqanlarının səlahiyyətinə aid edilməlidir. Hesab edirəm ki, belə yanaşma vətəndaş müraciətlərinin həll edilməsinin tezliyi prinsipinə uyğundur və ədalətin obyektiv olaraq təmin olunmasının ən optimal və mütərəqqi yolu hesab edilməlidir.

İrəli sürdüyümüz təkliflər yalnız epizodik səciyyə daşıyır. Buna görə də ölkədə qanunvericiliyin təkmilləşdirilməsi, cinayətkarlığın və hüquq pozuntularının problemlərinə dair kompleks tədbirlərin hazırlanması və həyata keçirilməsi zəruridir. Heç şübhə yoxdur ki, belə tədbirlər ölkəmizdə hüquqi dövlət quruculuğunun uğurla başa çatdırılmasını təmin edəcəkdir.

**Vahid ÖMƏROV,**
***fəlsəfə üzrə fəlsəfə doktoru***




*Bu yazı Azərbaycan Respublikası Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyə dəstəyi ilə "İnsan hüquq və azadlıqlarının müdafiəsi, vətəndaşların hüquqi, siyasi mədəniyyət səviyyəsinin yüksəldilməsi, sosial və siyasi fəallığının artırılması" istiqaməti çərçivəsində hazırlanıb*

# səs

Son səhifə 27 may


## Sibel Can anasından 5 yaş kiçikdir

31 il əvvəl yaşını 6 il böyüdən Sibel Can həqiqi yaşını geri qaytarmaq üçün məhkəməyə müraciət edib. İstanbul hüquq məhkəməsində keçirilən ilk prosesə Sibel Canın dayısı Ünal Babacan da qatılıb. Məhkəmədə şahid olaraq dinlənilən Babacan bildirib ki, ailəsi o dövr bir kazinoda səhnəyə çıxması üçün məhkəməyə müraciət edərək müğənninin yaşını böyütdürüb: "Sibel Canın 1970-ci il təvəllüdlü olduğunu qətiliklə bilirəm. Yaşı kiçik olduğu üçün qanuni olaraq səhnəyə çıxması qadağan idi. Ailəsi doğum tarixini 1964 olaraq düzəltdirmişdi". Məhkəmə hakimi də "Sibel Canın anasıyla arasında 5 yaş fərq var. İllər əvvəl bunu necə ediblər?" - deyə üsyan edib. Hakim müğənninin ibtidai sinif sənədlərini tələb edərək məhkəmə prosesini təxirə salıb.



## Gündə bir ədəd yumurta insanı depressiyadan xilas edir

Mövsüm dəyişikliyi ilə əlaqədar olaraq, xəstəliklərin sayının artmasını nəzərə alan mütəxəsislər immun sisteminin gücləndirilməsi üçün gündə bir ədəd yumurta yeməyi məsləhət görürlər. Protein mənbəyi olan yumurta insan sağlamlığı üçün olduqca önəmlidir və normal insanın gündə 1 ədəd yumurta yeməsində fayda var. Bişirilməsi çox asan, qida dəyəri isə yüksək ərzaqlardan olan yumurta insanın gündəlik protein ehtiyacını qarşılamaqla yanaşı, halsızlıqdan xilas olmaq, enerjili bir gün keçirmək üçün də əvəzsiz vasitədir. Qəfil mövsüm dəyişiklikləri insan səhhətini xəstəliklər qarşısında zəiflədir, enerjini azaldır, halsızlıq və depressiyaya səbəb olur. Gündə bir ədəd yumurta yemək bütün bu mənfi təsirlərin öhdəsindən gəlmək üçün yetərlidir. Yumurtanın tərkibindəki selenium, dəmir kimi elementlər insanda xoşbəxtlik hissi yaradır. Yumurtanın tərkibindəki protein o qədər faydalıdır ki, onu körpəlikdən qocalana qədər hər dövrdə qəbul eləmək mümkündür. Bu məhsulun tərkibindəki A və D vitaminləri, dəmir, selenium, sink, kolin kimi elementlər immunitet sistemini gücləndirir, sümüklərin inkişafına, qanda oksigenin daşınmasına, beyin funksiyalarının yerinə yetirilməsinə yardım edir. Dietoloqların sözlərinə görə, yay aylarında çəkisinə və qidalanmasına diqqət edənlər yumurtanı fərqli şəkildə qəbul edə bilərlər. Məsələn, yumurtanı 10 dəqiqə qaynadıb, sonra 4 dəqiqə bişirmək olar. Sadəcə qaynadıb, yemək kökəlməyə səbəb olduğundan, onu daha çox pomidor, göyərti və sair tərəvəzlərlə birgə bişirərək, kükü şəklində yemək olar.



## Türmədən çıxandan 55 dəqiqə sonra həbs edildi

Kristofer Uiver adlı Oreqon ştatı sakini türmədən özü kimi 31 məhkumla birgə səhər saat 11 radələrində çıxıb. Kütləvi həbsdən azad edilmənin səbəbi isə yerli hakimiyyətin türmələri maliyyələşdirməkdən vaz keçməsi idi. İndi sözügedən türmə 500 nəfər əvəzinə 135 yerli məhkumu saxlaya bilir. Daha öncə təcavüzə görə həbs olunmuş Uiver isə həbsdən azad olunan gün "Pacific Continental Bank"a gedib və onu qarət edib. Maraqlıdır ki, həbsdən saat 11 radələrində çıxan amerikalı 11.55-də həbs edilib. Uiveri dərhal azad edildiyi türməyə geri qaytarıblar. Uiver polisə verdiyi ilkin açıqlamada deyib ki, qarəti məhz həbs olunmaq üçün edib: "Mənə türmədən kənarda yaşamaq çətindir. Ona görə geri qayıtmaq istədim. Ən zərərsiz üsul isə bu idi - bank yarmaq".


### ELAN

Azərbaycan Dövlət Pedaqoji Universitetinin Tarix ixtisası üzrə III tədris ilinin tələbəsi Budaqlı Aytac Coşqun qızının adına verilmiş tələbə bileti itdiyi üçün etibarsız sayılır.

Azərbaycan Dövlət Pedaqoji Universitetinin Musiqi və təsviri incəsənət fakültəsinin III tədris ilinin tələbəsi İsgəndərova Bülbül Fizuli qızının adına verilmiş tələbə bileti itdiyi üçün etibarsız sayılır.


## "Vüqar Həşimov Azərbaycan şahmatına böyük uğurlar qazandırıb"



Mərhum şahmatçımız Vüqar Həşimov aramızda olmasa da, biz onu daim ehtiramla xatırlayırıq. O, dünya şahmat ulduzu, Avropa çempionu idi. Vüqar Həşimov Azərbaycan şahmatına böyük uğurlar qazandırıb. Bu turnir də onun xatirəsinə ehtiram əlamətidir. AZƏRTAC xəbər verir ki, bu sözləri Vüqar Həşimovun xatirəsinə həsr olunan "Shamkir Chess 2016" super turnirinin açılış mərasimində iştirak edən gənclər və idman naziri Azad Rəhimov yarış haqda fikirlərini bölüşərkən deyib. Nazir bildirib ki, "Shamkir Chess" turniri Azərbaycanda keçirilən və FİDE-nin təqvimində yer alan beynəlxalq yarışlar arasında xüsusi yer tutur. Turnir yüksək səviyyədə təşkil olunub. Şəmkir çox gözəl şəhərdir. Şahmatçılar da özlərini burada çox yaxşı hiss edirlər. Qarşıda şahmatsevərləri on maraqlı yarış günü gözləyir. "Shamkir Chess 2016" super turniri iyunun 4-də başa çatacaq.

## "Qarabağ" yenə də Azərbaycan kubokunun sahibi oldu



Mayın 25-də Tofiq Bəhramov adına Respublika stadionunda "Qarabağ" və "Neftçi" futbol komandaları arasında Azərbaycan kuboku yarışlarının final oyunu keçirilib. Finalda minimal hesabla qalib gələn Ağdamın "Qarabağ" komandası Azərbaycan kubokunun qalibi olub. AZƏRTAC xəbər verir ki, matçdan əvvəl açılış mərasimi keçirilib. Açılış mərasimində müğənni Rauf, eləcə də Xalq Artisti Aygün Kazımova çıxış ediblər. Beş yaşlı Nurayın "İgid əsgər, möhkəm dayan!" mahnısı azarkeşlərin xüsusi rəğbəti ilə qarşılanıb. Qarşılıqlı hücumlar şəraitində keçən görüşün birinci hissəsində hesab açılmayıb. Komandaların cəhdlərinə baxmayaraq, ikinci hissədə də qapılara top vurulmayıb. Əsas vaxtda qalib müəyyənləşmədiyi üçün əlavə vaxt oynanılıb. Əlavə olunmuş vaxtın sonuncu dəqiqəsində "Qarabağ"ın futbolçusu Miçel hesabı açıb. Beləliklə, görüş 1:0 hesabı ilə "Qarabağ"ın xeyrinə başa çatıb. Ardıcıl iki ildir Azərbaycan Premyer-liqasının da qalibi olan "Qarabağ" klubu "Qızıl dubl" edib. Mükafatlandırma mərasimində AFFA-nın prezidenti Rövnəq Abdullayev və Peşəkar Futbol Liqasının prezidenti Ramin Musayev iştirak ediblər. Rövnəq Abdullayev kuboku "Qarabağ"ın kapitanı Rəşad Sadıqova təqdim edib.

## Bakıda konkur üzrə CSI2*-W dərəcəsində beynəlxalq turnir başlayıb



Mayın 25-də "Binə" atçılıq mərkəzinin açıq manejində ümummilli lider Heydər Əliyevin xatirəsinə həsr olunmuş konkur üzrə CSI2*-W dərəcəsində beynəlxalq turnir başlayıb. Turnirin mükafat fondu 60 min manatdır. AZƏRTAC xəbər verir ki, turnirin ilk günündə yarışların iki turu keçirilib. Azərbaycan və Lüksemburqdan olan iştirakçılar 15 yorğa atda vaxt nəzərə alınmaqla yarışıb. 36,68 saniyə nəticə ilə birinci yeri "Cissy" ləqəbli atla azərbaycanlı çapar Səid Musayev qazanıb. Azərbaycanla yanaşı, Almaniya, Türkiyə və Lüksemburqdan olan idmançıların da iştirak etdiyi ikinci turda Türkiyə təmsilçisi Ömər Şimşək qalib olub. O, ən yaxşı vaxt göstəricisi ilə (62,68 saniyə) 65 xal toplayıb. Qeyd edək ki, Azərbaycanda artıq ənənəyə çevrilən bu turnir 2009-cu ildən keçirilir.

## Özil yenə "Arsenal"ın təklifini rədd etdi



"Arsenal" yarımmüdafiəçisi Məsut Özilə yeni müqavilə təklif edib. Qol.az-ın "The Times"ə istinadən verdiyi məlumata görə, türk əsilli alman futbolçu ikinci dəfə London təmsilçisinin təklifini rədd edib. Daha öncə mövsümün əvvəlində "topçular"ın müqavilə yeniləmək təklifini qəbul etməyən Özil gələcək mövsümlə bağlı yekun qərarını Fransada keçiriləcək Avropa çempionatından sonra açıqlayacağını bildirib. Qeyd edək ki, Özil 2013-cü ildə 46 milyon avro müqabilində Madrid "Real"ından "Arsenal"a transfer olunub.


**Baş redaktor:**
**Bəhruz Quliyev**
**Baş redaktorun müavinləri:**
**Valeh Məhərrəmli**
**Fətulla Həsənov**

**Ünvanımız: Bakı şəhəri, Üzeyir Hacıbəyov küçəsi, 32.**
**Şəhadətnamə: № 022492**
**http://www.ses-news.az**
**http://www.sesqazeti.az**
**E-mail: ses@sia.az**
**Tel: 598-33-90 Faks: 493-11-62**

**Buraxılışa məsul: Mətləb Salahov**

Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.

Qəzet "Səs"in kompüter mərkəzində yığılır, səhifələnir.
"Azərbaycan" nəşriyyatında çap olunur
Qəzetdə AzərTAc, SİA, APA və AZADİNFORM informasiya agentliklərinin məlumatlarından istifadə olunur.

**Qəzet bazar və bazar ertəsindən başqa hər gün nəşr olunur**
**Tiraj: 5500**